# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 17 (3530) Cümə axşamı / 16-22 may 2024-cü il Qiymәti 40 qәpik


# İrəvanda kilsə iqtidara qarşı

**_Ermənistan baş nazirinin Azərbaycanla sülh danışıqlarına adekvat yanaşması erməni kilsəsinin etiraz müqavimətini qızışdırıb. Etirazçı qüvvələrin xalqı sülh prosesini pozmağa yönələn "kilsə siyasəti" birmənalı qarşılanmır. Ermənistan kilsəsinin tarix boyu terroru, işğalı dəstəklədiyi, region uğrunda savaşan güclərin əlində bir alətə çevrildiyi məlumdur. Bəs budəfəki sülhüpozma cəhdlərinin hansı nəticələri ola bilər?_**



■ **Milli Məclisin deputatı Aydın Mirzəzadə hafta.az-a bildirib ki, erməni millətçilərinin siyasəti kilsə ətrafında formalaşıb.**

Deputat həm sovet dövründə, həm də 1991-ci ildən sonra erməni kilsəsinin ermənilərin digər xalqların torpağına, mədəniyyətinə iddiasında, aqressiv fəaliyyətində böyük rol oynadığını qeyd edib.

"İndi də erməni kilsəsi hesab edir ki, dövlətə aid olan məsələləri mütləq o həll etməlidir. Zaman dəyişib, yeni reallıq yaranıb, Azərbaycan öz torpaqlarını işğaldan azad edib. Azərbaycan dövləti rəsmi hakimiyyətlə özünün suveren hüquqlarının bərpası məsələsini müəyyənləşdirir. Kilsə bu məsələdə kənarda qaldığı üçün çox narahatdır. Əslində, hətta erməni dövlətinə təsir etsəydi belə, Azərbaycanın gücü və beynəlxalq hüquqa söykənməsi onun iddialarını yox edəcəkdi. Ona görə də bu cür yollarla vəziyyəti qarışdırmağa, 2020-ci ilin 27 sentyabrına qədər olan vəziyyətə qaytarmağa çalışır. Bu cəhdlər heç bir nəticə verməyəcək". A.Mirzəzadə bildirib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa borcludur: "Kilsənin küçə yürüşləri, ayrı-ayrı aksiyalar təşkil etməsi isə gec-tez sönəcək".

■ **Politoloq Rəşad Bayramov kilsənin erməni ictimaiyyətinə təsir imkanlarının hər zaman üst səviyyədə olduğunu deyir.**

Bildirib ki, Ermənistanın terror, soyqırımı, işğal siyasəti kilsə ideologiyasının məhsuludur və erməni toplumunun "böyük Ermənistan" xülyası ilə tərbiyə olunmasında kilsənin rolu əvəzsizdir. "İstər Birinci Qarabağ savaşından əvvəlki dönəmdə və sonrakı mərhələlərdə kilsənin Azərbaycan ərazilərinin işğalda saxlanılması, terror aktları ilə bağlı dəfələrlə çağırışlar etdiyinə şahid olmuşuq. İndi də faktiki olaraq Ermənistanda kilsənin ayaqlanıb hakimiyyət uğrunda mübarizəyə başlaması düşmən siyasətlərindən əl çəkməməsindən, işğal siyasətini davam etdirməsindən, qonşulara qarşı ərazi iddiası ilə çıxış etməsinin davamına dəstək vermələrinin göstəricisidir. Ermənistanda aksiyalara rəhbərlik edən keşiş "revanşistəm, ömrümün sonuna qədər revanşist olmaqda davam edəcəyəm" bəyanatları ilə çıxış edirsə, əgər erməni katalikosu Qaregin öz bəyanatlarında yenə də müharibəyə çağırışlar edərək, "9 may təkcə Qələbə günü deyil, həm də Şuşanın azad olunması günü kimi qeyd edilməlidir; Arsax ordusunun yaranma günü qeyd olunur, təəssüf ki, insanlarımızın qanı bahsına azad olunan Qarabağ yenidən işğal altındadır", - deyirsə, bu, düşmənin işğal niyyətindən əl çəkmədiyinin göstəricisidir". R.Bayramov bildirir ki, erməni kilsəsinin arxasında dayanan, onları hərəkətə gətirən güclər bir yerdən idarə olunmur. Proseslərin arxasında dayanan, ən aktiv şəkildə dəstək verənlərdən biri Rusiya apostol kilsəsinin rəhbəri Mkırtıç Nersisyandır.

"Nersisyan 1986-1988-ci illərdə Sankt-Peterburq Ruhani Akademiyasının aspiranturasında oxuyub, 2020-ci ildə Eçmiədzin monastırında Sankt-Peterburq erməni icmasının tarixi mövzusunda dissertasiya müdafiə edib, arxamandrit dərəcəsi alıb. 2002-ci ildən Rusiya Prezidenti yanında dini icmaların qarşılıqlı əlaqəsi şurasının üzvüdür.

▸▸ Səh. 3

“

*Kilsə bu məsələdə kənarda qaldığı üçün çox narahatdır*

*Ermənistanın terror, soyqırımı, işğal siyasəti kilsə ideologiyasının məhsuludur*

*Zaman-zaman kilsə Rusiya, Fransa, Amerika, Livan, Suriyadan idarə olunur*



MÜSAHİB

# Şuşada tarixi anlar yaşanır



**Zahid Abbasov,**
Şuşa Rayon Mədəniyyət Şöbəsinin keçmiş müdiri

***Böyük qayıdış növbəsi artıq mədəniyyət paytaxtımız və Qarabağın incisi sayılan Şuşaya çatdı. Qədim Şuşamız ilk köç karvanlarını qarşıladı. Bu köç karvanında 38 ailə - 136 nəfər şuşalı iştirak etdi. Müharibədən qısa müddət sonra beynəlxalq tədbirlərə, musiqi festivallarına ev sahibliyi edən Şuşamız ilk dəfə öz sakinlərinə qucaq açdı. 30 il Şuşa Rayon Mədəniyyət Şöbəsinin müdiri işləmiş, hazırda Sumqayıt Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi, Şuşa rayonu üzrə nümayəndə Zahid Abbasovla yaşanan bu tarixi anları müzakirə etdik.***

*Bu barədə düşünərkən belə ürəyim əsir, həyəcanlanıram, sevinc hissindən kövrəlirəm*

▸▸ Səh. 2

MÜSAHİB



**Elxan Nuriyev,**
hərbi ekspert, ehtiyatda olan polkovnik

“

■ Xarkovu götürmək üçün Rusiya 100-150 min hərbçi itkisinə hazır olmalıdır...

■ Rusiya rəhbərliyində baş verənlər cəbhədəki proseslərə də bu və ya digər dərəcədə təsir göstərir

■ Baş verənlər, həm də Ukraynanın Avropa Birliyinə və NATO-ya üzv olmaq iddiasından əl çəkməyəcəyini ifadə edir

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



Laçından yeni görüntü

GÜNÜN SİTATI

“ *Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə qlobal səviyyədə əhəmiyyətli rol oynayır* ”



**Peter Mixalko,**
Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri

KARİKATURA




Mən sülh istəyirəm...

“

## Köhnə avtomobillərdən istifadə məhdudlaşdırılır

**Aslan Əsədov,**
nəqliyyat məsələləri üzrə ekspert

Ekoloji cəhətdən uyğun olmayan avtomobillərin yenisi ilə əvəz olunması məsələsi növbəti mərhələnin işidir.

▸▸ Səh. 5

STATİSTİKA



■ **Bu ilin yanvar-aprel aylarında Azərbaycanda günəş elektrik stansiyalarında 144,4 mln. kVt·st elektrik enerjisi istehsal olunub, bu da illik müqayisədə 7,6 dəfə çoxdur.**

Dörd ay ərzində ölkədə külək elektrik stansiyalarında 21 mln. kVt·st elektrik enerjisi istehsal olunub, bu da illik müqayisədə 2%-ə yaxın azalma deməkdir. Hesabat dövründə Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 90,5 mln. kVt·st elektrik enerjisi istehsal edilib, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 8,4% çoxdur.



▸▸ Səh. 5

# NATO-nun sonu çatır?

**PREZİDENTİN İŞ GÜNÜ**

## Fərman



**Azərbaycan Prezidenti İlham Əliyev Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi yaradılması barədə Fərman imzalayıb.**

Dövlət başçısının imzaladığı sənəddə əsasən, Səhiyyə Nazirliyinin tabeliyində "Tibb Müəssisələrinin Akkreditasiyası və Keyfiyyətə Nəzarət Mərkəzi" (bundan sonra - Mərkəz) publik hüquqi şəxs yaradılacaq. Mərkəzin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tibb müəssisələrinin akkreditasiyası, tibbi xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi üzrə tədbirlər görülməsi, habelə tibb müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişafı ilə bağlı dəstək xidmətləri göstərilməsi sahələrində fəaliyyət göstərən publik hüquqi şəxs olması müəyyən edilib.

Mərkəzin təsisçisinin səlahiyyətləri Azərbaycan Prezidentinə verilib. Fərmana əsasən, Nazirlər Kabineti qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, tibb müəssisələrinin akkreditasiyası ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində Azərbaycan Prezidentinə təqdim etməlidir. Bundan başqa iki ay müddətində Nazirlər Kabineti Mərkəzin nizamnaməsini təsdiq edib Azərbaycan Prezidentinə məlumat verməlidir.

## Slovakiyanın Baş nazirinə sui-qəsd



**Prezident İlham Əliyev Slovakiyanın Baş naziri Robert Fitsoya qarşı sui-qəsd cəhdi ilə bağlı "X" sosial şəbəkə hesabında paylaşım edib. Paylaşımda deyilir:**

"Baş nazir Robert Fitsoya qarşı sui-qəsd cəhdi məni dərindən sarsıtdı və dəhşətə gəldim. Mən bu hücumu sərt şəkildə qınayıram. Baş nazir Fitsonun, onun ailəsinin və slovak xalqının yanındayıq. Ona tezliklə sağalmağı arzulayıram".

Qeyd edək ki, Slovakiyanın Baş naziri Robert Fitsoya qarşı sui-qəsd edilib. Baş naziri Robert Fitso kabinetin iclasından sonra baş verən atışmada yaralanıb. Məlumata görə, atəş Fitso ictimaiyyət arasında çıxdıqdan sonra açılıb. R.Fitso sinə və qarın nahiyyəsindən çoxsaylı yaralar alıb. O, Bratislavadakı xəstəxanaya çatdırılıb. Bildirilib ki, hücum edən şəxs saxlanılıb və onun hərəkətinin motivləri məlum deyil.

Dövlətin ən yüksək səviyyəli nümayəndələrindən biri olan Baş nazir Roberto Fikoya qarşı sui-qəsd Slovakiya demokratiyası üçün görünməmiş təhlükə yaradır. "Report" xəbər verir ki, bu barədə Slovakiyanın seçilmiş Prezidenti Peter Pelleqrini sosial şəbəkədəki səhifəsində bildirib.

"Fərqli siyasi baxışlara nifrətin nəyə gətirib çıxara biləcəyindən dəhşətə gəlirəm. Biz hər şeydə razılaşmaq məcburiyyətində deyilik, lakin fikir ayrılığımızı demokratik və hüquqi yolla ifadə etməyin bir çox yolu var", - o yazıb.

Pelleqrini onu da əlavə edib ki, insanlar müxtəlif siyasi fikirləri seçki məntəqələrində deyil, küçələrdə silahla ifadə etsələr, Slovakiyanın müstəqil olduğu son 31 ildə qurduğu bütün demokratik dəyərləri təhdid etmiş olacaqlar. "Baş nazirə tezliklə sağalmağı arzulayıram və həqiqətən də belə mənasız və qəddar hərəkətin ümumbəşəri qınaq obyektinə çevrilməsini istəyirəm", - o deyib.

Qeyd edək ki, Peter Pelleqrini 2024-cü il aprelin 7-dən Slovakiya Prezidenti seçilib və bu il iyunun 15-də rəsmi olaraq vəzifəsinin icrasına başlayacaq.

Slovakiyanın Baş naziri Roberto Fitsoya qarşı suiqəsd cəhdində müxalif Tərəqqici Slovakiya Partiyasının tərəfdarı Yuray Çintula şübhəli bilinir. Şübhəli şəxs yazıçıdır, lakin hazırda özəl mühafizə şirkətində işləyir. Fitsoya qarşı sui-qəsd cəhdində şübhəli bilinən şəxsin oğlu mediaya açıqlamasında atasının qanuni şəkildə silaha sahib olduğunu deyib.

Müxalifətdəki Tərəqqiçi Slovakiya Partiyasının üzvləri Baş nazir Roberto Fitsoya sui-qəsd cəhdində şübhəli bilinən şəxsin onların partiyasının üzvü olması ilə bağlı yayılan xəbərləri təkzib edib. "Onun hərəkatımızın üzvü olmasını qəti şəkildə inkar edirik. Onun həmçinin partiyamız ilə də heç bir əlaqəsi yoxdur. Onun iyrənc hərəkətini qətiyyətlə pisləyirik", - partiyanın bəyanatında deyilir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Şuşada tarixi anlar yaşanır

***Böyük qayıdış növbəsi artıq mədəniyyət paytaxtımız və Qarabağın incisi sayılan Şuşaya çatdı. Qədim Şuşamız ilk köç karvanlarını qarşıladı. Bu köç karvanında 38 ailə - 136 nəfər şuşalı iştirak etdi. Müharibədən qısa müddət sonra beynəlxalq tədbirlərə, musiqi festivallarına ev sahibliyi edən Şuşamız ilk dəfə öz sakinlərinə qucaq açdı. 30 il Şuşa Rayon Mədəniyyət Şöbəsinin müdiri işləmiş, hazırda Sumqayıt Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi, Şuşa rayonu üzrə nümayəndə Zahid Abbasovla yaşanan bu tarixi anları müzakirə etdik.***

## Müsahib

***- Otuz iki ildən sonra şuşalılar doğma Şuşaya qayıtdılar...***

- Şuşamız, şuşalılar uzun illərdən bəri gözlədiyi böyük tarixi anları yaşayır. Doğma ocağımıza olan həsrət bitir. Şuşamız şuşalılarla birlikdə nəfəs alıb, yenidən pərvazlanıb, yaşamağa başlayacaq. İsa bulağının suyunun sərinliyini içimizdə hiss edə biləcəyik.

Əlbəttə, şuşalıların sevincinin həddi-hüdudu yoxdur. Biz çoxumuz Şuşa azad olunandan sonra müxtəlif səbəblərlə o yerlərə gedib bərpa-quruculuq işlərində iştirak edir, yaxud sadəcə ziyarət edib qayıdırıq. Şuşada öz evinə qayıtmaq, orada yaşamağa davam etmək tamam başqa bir hissdir. Hər birimiz Şuşaya öz evində, öz doğma ocağında yaşamağa gedən şuşalılarımız üçün ürəkdən sevinirik. Şuşa üçün sevinirik. Onun övladları geri qayıdır.

***- Siz özünüz Şuşaya, evinizə döndünüzmü? Şuşaya köçən insanların iş, sosial həyatı necə təmin olunacaq?***

- Mənözüm hələ Şuşaya qayıtmamışam. Dövlətin bu istiqamətdə apardığı işləri bəyənirəm. Çox sakit, ardıcıl şəkildə insanların öz yurduna köçməsini təmin edirlər. Çox səbirsizliklə oturub gözləyirəm. Yəqin ki, yaxın vaxtlarda mən də Şuşama köçəcəyəm və orada dərindən nəfəs alıb yaşamağa başlayacağam. Bu barədə düşünərkən belə ürəyim əsir, həyəcanlanıram, sevinc hissindən kövrəlirəm. Şuşaya qayıdan o insanların keçirdiyi hissləri təsəvvür edirəm. Məncə, həmin gün o şuşalıların ikinci dəfə yenidən dünyaya gəlişi kimi yaddaşlarında qalacaq və heç vaxt fikirlərindən silinməyəcək.



Eyni zamanda, şuşalıların işlə təmin olunması istiqamətində Prezidentin xüsusi nümayəndəsi Aydın Kərimovun rəhbərliyi ilə xeyli iş görülüb. Yeni köçən sakinlərin işlə təminatının düzgün qurulması üçün lazımi tədbirlər görülüb. Birinci köçdə 370 ailə öz evinə-yurduna qayıdır. Sonra artıq ikinci qayıdış layihəsi üzrə işlər başlayacaq və cənab Prezident bu dəfə Şuşada olanda üçüncü yeni yaşayış kompleksinin bünövrəsini qoydu. Yəqin ki, yaxın zamanlarda Şuşada qaynar həyatı görəcəyik.

***- Şuşada aparılan quruculuq işləri, infrastruktur layihələr Qarabağın hansı mövcud reallığından xəbər verir?***

- Qarabağda, Şərqi Zəngəzurda tarixi günlər yaşayırıq. Son illər ölkəmizdə, xüsusilə də bizim Şuşamızda aparılan quruculuq, yaradıcılıq işlərini yüksək dəyərləndirirəm. Ermənistanın vandal siyasəti nəticəsində Azərbaycanın işğal altındakı əraziləri tamamilə dağıdılıb. Ermənilərin törətdiyi dağıntılar və beynəlxalq ictimaiyyətin məsələyə ikili yanaşmaları, təcavüzkara qarşı sərt mövqe sərgiləmədən vəziyyəti olduğu kimi saxlamaq istəklərinə və bu yöndə apardıqları siyasətə baxanda bugünümüzə şükür edirik. Belə gözəl günləri yenidən yaşayacağımızın həsrəti ilə bu dünyanı tərk edəcəyimizdən narahat idik. Qlobal güclərin ölkəmizə qarşı əsassız iddiaları, işğalçını dəstəkləməsi fonunda torpaqlarımızı qısa müddət ərzində azad edəcəyimizi ağlımıza gətirmirdik. Təbii ki, torpaqlarımızın işğaldan azad olunacağına inanırdıq. Bu günləri bizə yaşatdıqlarına görə, ilk növbədə, o torpaqlar uğrunda şəhid olan oğulların ruhu qarşısında baş əyirəm. Orada döyüşən əsgərlərimizə, qazilərimizə cansağlığı arzulayıram. Bugünün ən gözəl reallığı torpaqlarımızın azadlığı, sərhədlərimizin bütövlüyü və işğaldan azad olunmuş ərazilərimizdə davamlı bərpa-quruculuq işlərinin aparılmasıdır.

Mən özüm də müharibə veteranı, qaziyəm. Uzun müddət Şuşada çalışmışam, şəhərin müdafiəsi uğrunda vuruşmuşam. 32 illik işğal dövründə düşməndən xilas edib Bakıya gətirdiyimiz mədəniyyət paytaxtımız Şuşanın tarixi-mədəniyyət nümunələrini qoruyub-saxlamağa çalışmışam. Bir günüm belə Şuşasız keçməyib. Respublika və beynəlxalq səviyyədə keçirilən tədbirlərdə Şuşanın işğala məruz qalmasını və yaşadığı faciələri dünyaya çatdırmağa çalışmışam. "Bəlkə dünya dərdimizi eşidər" deyə, dəfələrlə beynəlxalq tədbirlərdə, sərgilərdə Şuşanın Azərbaycanın qədim diyarı olaraq işğal edildiyini bəyan etmişik. Eləcə də uzun illər Şuşa mədəniyyət adamlarının ayrı-ayrı ölkələrdə iştirak etdiyi konsertlərə baxa-baxa həm sevinmişəm, həm də için-için ağlamışam.

> *Bu barədə düşünərkən belə ürəyim əsir, həyəcanlanıram, sevinc hissindən kövrəlirəm*

Mən hər il şuşalıları dünyanın 55 ölkəsinin iştirak etdiyi TRT uşaq festivalına aparırdım. Orada avtobusların qarşısına ölkələrin adı yazılırdı. Bizim avtobusun qabağına yazılırdı - ŞUŞA. Şuşalılar o tədbirdə çıxış edib qurtarana qədər bir tərəfdən, sevinirdim ki, şuşalılar uğurlara, nailiyyətlərə imza atır, digər tərəfdən göz yaşı tökürdüm ki, biz Şuşasızıq. Ona görə də Allahın bugününə min şükür. Bugünkü reallıq regionun nəbzinin Azərbaycanda vurulması ilə ölçülür. O dəhşətli günlər geridə qalıb. Əlbəttə ki, Ali Baş Komandanımız, çox hörmətli dostumuz İlham Əliyevə dərin təşəkkürümü bildirirəm, minnətdaram ki, bugünü bizə yaşatdı. Eyni zamanda, qeyd etməliyəm ki, Şuşada qürur hissi ilə yaşadığımızın hamısı ulu öndər Heydər Əliyevin layihəsi, arzuları idi. Qoy bu gün Ulu Öndərin ruhu şad olsun. Mən həmişə Şuşada gəzəndə də deyirəm: Ulu Öndərin ruhu Şuşanın üzərində gəzir. Həmişə də deyirəm: ruhun şad olsun, Ulu Öndər, arzuların çin oldu.



**Zahid Abbasov,**
Şuşa Rayon Mədəniyyət Şöbəsinin keçmiş müdiri

***- "Xarıbülbül" Festivalı necə keçdi, sizdə hansı xatirələri oyatdı?***

- "Xarıbülbül" festivalı əvvəlkilərdən daha möhtəşəm, daha təntənəli oldu. 32 il Şuşa Mədəniyyət İdarəsinə rəhbərlik etmiş bir adam kimi, mən bir daha fəxr etdim ki, Azərbaycan mədəniyyəti gündən-günə gözəlləşir, yeni vüsət alır. Zeynəb Xanlarovanın Şuşadakı çıxışı zamanı mən yenə içimdə kövrəldim.

Sizinlə Şuşa, Ulu Öndərlə bağlı unutmadığım və bu günlər "Xarıbülbül" Festivalında təbəssümlə yada saldığım bir xatirəmi bölüşmək istəyirəm. 1982-ci il iyul ayının 29-u idi. O vaxt biz Şuşada belə musiqili tədbirləri "Mahnı bayramları" adlandırırdıq. Mən məsul vəzifədə olduğum üçün bu tədbirlərin keçirilməsini təşkil edənlərdən idim. Yaxşı xatirimdədir. Birinci cərgədə oturmuşdum. İndi o günlərin fotoxatirələri də məndə qalır. Ulu Öndər, Zərifə xanım Əliyeva öndə əyləşmişdilər. Eləcə də Mirzə İbrahimov və respublikamızın digər məsul şəxsləri tədbirdə idilər. İndi Cıdır düzündə "Xarıbülbül" Festivalının keçirildiyi həmin o səhnənin yerində gözəl "Mahnı bayramı" keçirilirdi. Zeynəb Xanlarova həmişəki kimi ən axırda oxuyurdu. Zeynəb xanım səhnəyə çıxanda möhkəm leysan yağdı. Sizi inandırıram, heç kim yerindən tərpənmədi. O cümlədən Ulu Öndər o leysanda axıra qədər Zeynəb xanımı dinlədi və Zeynəb xanım da axıra qədər oxudu. Sonra mahnı bayramı bitdi, qonaqlar tədbiri İsa bulağında davam etdirməli idilər. Yağışdan islanan qonaqların bəziləri şəhərdə qaldı, Ulu Öndər də qonaq evinə gəldi. Mən də qonaq evində idim. İsa bulağına gedən qonaqlar qonaq evinə qayıdanda Ulu Öndər leysan yağışının altında tədbirin necə keçməsi ilə maraqlandı. Dedilər ki, güclü leysan İsa bulağında qurulan məclisdə masanın birini yuyub-aparıb. Ulu Öndər bu hadisəyə görə çox narahat olmuşdu  Həmin zamanlar Ulu Öndərin Şuşada keçirilən tədbirlərə necə böyük əhəmiyyət və diqqətlə yanaşdığını müşahidə etmişdim. Təbii ki, üzərindən illər keçib. Dövlətimiz, torpaqlarımız yağı düşmən işğalından azad edildəndən sonra, Şuşada keçirilən "Xarıbülbül" Festivalları o zamanlar bünövrəsi qoyulan milli-mədəni irsin üzərindəki inkişafın yol xəritəsini təhlil etmək imkanı yaradır

***- Azərbaycanda "Xarıbülbül" Festivalı, "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilin açılış mərasimi ilə illərsonra dünyaya hansı mesajlarını verdi?***

- Prezidentin Şuşadakı çıxışı həmişə olduğu kimi maraqlı və mesaj yükü böyük olan çıxış idi.. Budəfəki çıxış həm də tarixi idi. Prezident beynəlxalq aləmə çox önəmli mesajlar verdi. Mən fəxr edirəm ki, müdrik Prezidentimiz var və həmişə öz ağlı, kamalı ilə beynəlxalq miqyasda seçilib. Festivalda qarşılaşdığımız yeni mənzərə və Prezidentin çıxışı məndə o əminliyi yaratdı ki, bundan sonra da Şuşanın mədəniyyəti daha etibarlı qorunacaq, inkişaf edəcək. İllərəvvəl Ulu Öndər demişdi ki, vaxt gələcək, Azərbaycan bir Günəş kimi parlayacaqdır.

Mən deyərdim ki, həmin gün gəlib və Şuşa yenə də öz mədəniyyəti ilə dünyada bir Günəş kimi parlayır. Əminəm ki, Heydər Əliyev Fondunun gördüyü layiqli işlər tezliklə Şuşanın bərpa edilib başa çatdırılmasına öz layiqli töhfələrini verəcək. Şuşada aparılan mədəni quruculuq və abadlıq işlərini bir şuşalı, mədəniyyət xadimi kimi ürəkdən bəyənirəm. Görülən işlər təqdirə layiqdir.

***- Şuşanın yenidən qurulmasında, bərpa prosesində sizi qane edən əsas məqam nədir və hansı yeni layihələr işlənməkdədir?***

- Şuşa köhnə mədəni ruhu, irsi gözlənilmək şərtilə, müasirləşir və daha da gözəlləşir. Şuşada Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa məscidləri çox gözəldir. Heydər Əliyev Fondu və onun rəhbəri, ölkəmizin Birinci xanımı Mehriban Əliyevanın başçılığı ilə məscidlər təmir olunub. Bilirsiniz ki, Şuşanın 17 məhəllləsi var və hər məhəllənin özünün məscidi olub. O məscidlərdən 3-ü - Aşağı Gövhər Ağa, Yuxarı Gövhər Ağa və Saatlı məscidləri minarəli olub.

Qalan digər məscidlərdə isə minarələr yox, gül dəstələri var idi. O vaxt bu məscidləri məşhur memar Kərbalayi Səfixan Qarabağı inşa etmişdi. Səfixan Qarabağı 120 yaşına qədər Şuşada yaşayıb-yaradıb. Onun çox gözəl işləri olub. O cümlədən Ağdamdakı Cümə məscidini, Bərdədə məscid onun memarlığı ilə inşa edilmişdir. Çox gözəl dünyamiqyaslı memarlıq abidələridir. Tezliklə Pənahəli xanın sarayında da təmir işləri başlayacaq. Layihə də hazırdır.

Üzeyir Hacıbəyovun ev-muzeyində tamamlama işləri gedir. Hamayil məscidinin təmiri başa çatıb. Məhəllə bulaqlarının çoxu təmir olunub. Düşünürəm, tezliklə muzeylərin Şuşaya köçürülməsi həyata keçirilməlidir. Xalça Muzeyi, Rəsm Qalereyası, Qarabağ Dövlət Tarixi Muzeyi və Şuşa Tarixi Muzeyinin köçürülməsini tezləşdirmək zəruridir. Bu muzeylər tez bir zamanda bərpa edilib, turistlərin istifadəsinə verilməlidir. Təklif edərdim, Şuşa Tarix Muzeyi Pənahəli xanın sarayında təşkil olunsun. Saraya gələn qonaqlar, eyni zamanda, Şuşanın tarixi nümunələri ilə tanış olmaq imkanı qazana bilər...

Bununla yanaşı, Türksoy və digər beynəlxalq təşkilatlar son illər Şuşa mədəniyyəti ilə bağlı çox qərarlar qəbul ediblər. Bu yaxınlarda "İslam dünyasının mədəniyyət paytaxtı" tədbiri ilə bağlı Şuşada növbəti işlər olacaq. Orada Şuşanın tarixi abidələri ilə bağlı böyük sərgilərin keçirilməsi gözlənilir. Eyni zamanda, musiqi proqramları da olacaq. Bizə məlumdur ki, Təhsil Nazirliyinin xətti ilə şagirdlər iyun ayının 1-də yenə "İslam dünyasının mədəniyyət paytaxtı"na həsr olunmuş tədbirə hazırlaşırlar. Uşaq Yaradıcılıq Mərkəzinin direktoru Əminə xanım Musayeva bu böyük tədbirə hazırlaşdıqlarını bildirib. Təbii ki, Şuşada belə tədbirlərin keçirilməsi müsbət haldır və bu, bizi sevindirir. Eyni zamanda, quruculuq işləri də davam edir. Bütün bu işlər Şuşanın getdikcə təkcə Azərbaycanın deyil, dünyanın mədəniyyət incisinə çevriləcəyini göstərir. Şuşanın gözəlləşməsi, inkişafı bütün şuşalıların xoşbəxt, gözəl yaşamı və sevincidir.

***✍ Tahirə Qafarlı***

# Xarkov istiqamətində hücumlar gözlənilirdi



**Elxan Nuriyev,**
hərbi ekspert, ehtiyatda olan polkovnik

*Hazırda Ukraynada yaşayıb fəaliyyət göstərən hərbi ekspert, ehtiyatda olan polkovnik Elxan Nuriyevlə hafta.az üçün budəfəki söhbətimizdə ABŞ Konqresinin Ukraynaya yardım paketini təsdiq etməsindən və Rusiyanın Xarkov istiqamətində hücumlarını intensivləşdirdikdən sonra cəbhədə formalaşmış durum, ABŞ Dövlət katibi Entoni Blinkenin Kiyevə son səfəri, Rusiya daxilində gedən son proseslər, Putinin ordu komandanlığında etdiyi dəyişikliklərin və s. cəbhədəki hərbi əməliyyatların gedişinə təsiri və digər məsələlər haqqında danışdıq.*

## Müsahib

***- Mayın 14-ü səhər saatlarında "Axilles" zərbə dronları taborunun komandiri Oles Malyareviç nikbin xəbərlər verdi ki, artıq düşmən Xarkov istiqamətində dayandırılıb və demək olar ki, tələyə düşüb. Ukrayna Silahlı Qüvvələri Baş Kəşfiyyat İdarəsinin rəisi Kiril Budanovun günortadan sonrakı bəyanatı xeyli bədbin idi. O, deyirdi ki, düşmən hücumunun qarşısını almaq üçün ehtiyat qüvvələrimiz çatışmır və s. Ümumiyyətlə, ABŞ Konqresinin Ukraynaya yardım paketini təsdiq etməsindən və Rusiyanın Xarkov istiqamətində hücumlarını intensivləşdirdikdən sonra cəbhədəki durumu ümumi şəkildə necə xarakterizə edərdiniz?***

- Bir neçə cümlə ilə Rusiya-Ukrayna cəbhəsindəki durumu xarakterizə etmək çətin məsələdir... Xarkov istiqamətində hücumlar gözlənilirdi. Ukraynanın siyasi və hərbi rəhbərliyi bunu bilirdi. İşğalçıların konkret olaraq hansı məntəqələrə hücum edəcəyi dəqiq müəyyənləşdirilməmişdi... Görünən odur ki, indiyədək ciddi bir uğura imza ata bilməyən Rusiyanın başqa əlacı yox idi. Kreml Ukraynanı, daha doğrusu, Qərbi danışıqlar masasına əyləşdirmək üçün "iri balıq tutmaq" xəyalına düşüb. "İri balıq" da Ukraynanın ikinci böyük şəhəri, 2 milyon yarımlıq meqapolisdir. Putin də yaxşı bilir ki, Xarkov şəhərini ələ keçirmək üçün Rusiyaya 350-400 min qoşun gərəkdir və azı, 100-150 min nəfərlik hərbçi itkisinə hazır olmaq lazımdır. Xarkov balaca bir kənd deyil ki, onu asanlıqla ələ keçirəsən...

Xülasə, Xarkov istiqamətindəki hücumları intensivləşdirməkdə Kremlin məqsədi birincisi, Ukraynanı danışıqlar masasına əyləşməyə məcbur etməkdi. İkincisi, Qərbə, ABŞ-yə göstərməkdir ki, guya artıq Ukraynaya yardım-filan etməyin əhəmiyyəti yoxdur - bu ölkə döyüşməyi bacarmır... Üçüncüsü, bununla Rusiya Qərb ölkələrinin xalqlarına, ictimaiyyətinə demək istəyir ki, sizin hökumətlərinizin Ukraynaya bütün yardımlarına, dəstəyinə rəğmən mən istənilən halda istədiyimi edirəm. Dördüncüsü, bildiyiniz kimi, Avropa parlamentinə seçkilər başlayır və qitənin müxtəlif ölkələrindəki radikal solçular və sağçılar aktivləşiblər. Sözsüz, onlar seçkilərdə bu cür məsələlərdən istifadə etməyə çalışacaqlar. Təbii ki, Rusiya da onlara dəstək verəcək. Bir sıra digər səbəblər də var...

Xarkova hücum, eyni zamanda, hərbi baxımdan Ukrayna ordusunun bir neçə istiqamətdən ehtiyat qüvvələrini çıxarmasına hesablanıb. Hazırda düşmən nə Çasov Yar, nə Avdeyevka, nə də Pokrovsk, Kupyansk istiqamətlərindən uğurlu əməliyyatlar həyata keçirə bilir. Odur ki, hər şeyə, hər metoda əl atmağa çalışır və təbii ki, Ukraynanın müdafiəsində zəif yer axtarır. Gerçək vəziyyət bundan ibarətdir. Deyək ki, guya sabah Rusiya hücum edib Xarkovu ələ keçirəcək - bu, baş tutan məsələ deyil. Xarkovu götürmək üçün nəhəng canlı qüvvə və texnikadan əlavə, həm də illər lazımdır. İndiki reallıq da ondan meydana gəldi ki, Qərbdən yardımlar ləngidi, Rusiya tərəfi də bundan istifadə etdi. Belə proqnozlaşdırıram ki, qarşıdakı ayyarım-iki ay ərzində Rusiyanın hərbi əməliyyatları bu tempdə davam etdirməsi mümkün olmayacaq.

***- ABŞ Müharibə Təhqiqatları İnstitutunun ("İSW") ekspertləri iddia edirlər ki, Xarkov istiqamətindəki hücum Rusiya üçün buferzona yaratmaq məqsədi daşıyır. Bu fikirlə razılaşmaq olarmı?***

- Bu fikirlə, nəticə ilə mən də razıyam. Rusiya Xarkov istiqamətindəki hücumları, həm də buferzona yaratmaq məqsədilə həyata keçirir. Yəni Xarkov vilayəti ilə həmsərhəd olan öz ərazilərini - Belqorod, Voronej, Kursk vilayətlərini qorumağa çalışır. Ruslar bu məsələni dəfələrlə dillərinə gətiriblər. Rusiyanın ehtiyatda olan generalları, hərbi ekspertləri KİV-də, telekanallardakı verilişlərdə bu haqda danışıblar. Yəni biz son hücumların buferzona məqsədi daşıdığını dəqiq bilirik. Bu barədə ruslar özləri danışırlar...

> *Xarkovu götürmək üçün Rusiya 100-150 min hərbçi itkisinə hazır olmalıdır...*

***- ABŞ-nin dövlət katibi Entoni Blinkenin Kiyevə son səfəri haqqında hansı məlumatlarınız var? Görünür, ABŞ, kollektiv Qərb Ukraynaya daha da ciddi dəstək vermək qərarına gəlib...***

- ABŞ dövlət katibi Ukraynaya yardım paketinin təsdiqlənməsindən sonra ilk dəfə idi, Kiyevə gəlirdi. Onun səfəri ilə bağlı Ukrayna rəhbərliyində çox az sayda şəxs məlumatlı olub. Blinken Ukraynaya gəldi və bir daha bildirdi ki, biz sizin yanınızdayıq, sizinlə bir yerdəyik. Bundan sonra da Rusiyaya qarşı döyüşmək üçün sizə lazım olan hər şeyi verəcəyik... Təbii ki, Qərb liderləri, bir qayda olaraq, Ukraynaya əliboş gəlmirlər, onlar gəlməmişdən öncə ölkə ərazisinə hansısa yeni partiya silahlar, texnikalar gətirilir. Təbii ki, Blinken də əliboş gəlməyib. Prezident Zelenski də mətbuata açıqlamasında bildirdi ki, cənab Blinkendən Xarkov şəhərinin və vilayətin müdafiəsi üçün əlavə iki "Patriot" sistemi istədim...

Bilirsiniz, Ukraynanın əsas tərəfdaşı, dostu və donoru ABŞ və Avropa Birliyi ölkələridir. Cənab Blinken Kiyevə son səfəri zamanı "ABŞ sizi tək buraxmayacaq" ifadəsini işlətdi. Bunun ardınca Böyük Britaniyanın baş naziri, xarici işlər naziri və digər Avropa ölkələrinin rəsmiləri bəyanatlar verdilər. Baş verənlər, həm də Ukraynanın Avropa Birliyinə və NATO-ya üzv olmaq iddiasından əl çəkməyəcəyini ifadə edir. Rusiya tərəfinin də başqa əlacı yoxdur.

***- Necə hesab edirsiniz, Rusiya daxilində gedən son proseslər, Putinin ordu komandanlığında etdiyi dəyişikliklər, Şoyqunu azad etməsi cəbhədəki hərbi əməliyyatların gedişinə nə dərəcədə təsir göstərir?***

- Rusiya rəhbərliyində baş verənlər cəbhədəki proseslərə də bu və ya digər dərəcədə təsir göstərir. Məsələ ondadır ki, istənilən halda, məsələn, bir müdafiə naziri Şoyqunun dəyişməsi ilə bütövlükdə Kremldəki idarəçilik sistemi, düşüncə tərzi dəyişmir. Bildiyiniz kimi, Rusiya, təxminən, 360 milyard dollarlıq büdcəsinin üçdəbirini, yəni 120 milyard dollarını hərbi sahəyə xərcləyir. Sözsüz ki, müharibəyə ayrılan vəsait oğurlanır. Görünür, Putin bundan narahat olub və Şoyqunun yaxın ətrafındakıların, o cümlədən müavini Timur İvanovun da həbsi bununla bağlıdır. Müdafiə naziri təyin etdiyi şəxs - Andrey Belousov isə indiyədək Putinin baş köməkçisi olub. O, qruplaşmaların üzvü deyil, Putinin ən yaxın adamlarından biridir. Deyilənə görə, yaxşı menecerdir, odur ki, ordunu Şoyqudan daha düzgün idarə edə bilər. Yenə də motivasiyası olmayan, yəni bütövlükdə nə üçün döyüşdüyünü bilməyən Rusiya ordusu yerində qalacaq. Təəssüf ki, yanlış təbliğat öz işini görür. 1990-cı lin 20 Yanvar qətliamından sonrakı günlər yadıma düşür; faciədən bir neçə gün sonra rus əsgərləri danışırdılar ki, bizə öncədən Bakıda rusların kütləvi şəkildə qətlə yetirildiyini demişdilər, ona görə də biz şəhərə daxil olan kimi qarşımıza çıxan hər kəsə atəş açırdıq. Ukraynaya qarşı da illərboyu aparılmış oxşar təbliğat öz işini görüb. Yenə də biz axı internet dövründə yaşayırıq. Nəyinsə xüsusi dəyişəcəyini demək çətindir. Rusiya isə silahlanma yarışına girişir, buna da ölkənin nə iqtisadiyyatı, nə də texnologiyaları yol verir. Rusiyanın istifadə etdiyi mərmilər 1970-ci illərdə istehsal olunmuş və Şimali Koreyadan alınan mərmilərdir. Sovet dövründə belə ölkələrə verdiyi mərmiləri indi geri alır. Bu gün Rusiya hərbi sənaye kompleksini müəyyən həddə qədər qaldırıb, bundan artığını edə bilmir. Belousovun nazir təyin edilməsi hərbi sənaye kompleksini (HSK) qaydaya salmaq, yeni növ müasir silahların, o cümlədən dronların istehsalı məqsədi güdür. Belousov Nazirlər Kabinetində məhz Rusiyanın dronlarla bağlı dövlət proqramına rəhbərlik edən bir şəxs olub. Putin həm də özünə yaxın şəxsi nazir təyin edib ki, HSK-ya ayrılan pul vəsaitlərinə nəzarət etsin. Rusiyada hərbi büdcənin oğurlanması çox ciddi bir faktdır...

***- Rusiyanın içərilərində Ukrayna partizan hərəkatının, o cümlədən əsasən Krım tatarlarından ibarət "Ateş" qruplaşmasının əməliyyatları nə dərəcədə effektivdir?***

- Əlbəttə, hamımız arzu edərdik ki, Ukraynada partizan hərəkatı daha da effektli olsun. Yəni tam olmamaqdansa, bu da yaxşıdır. Bu gün nəinki işğal edilmiş Ukrayna ərazilərində, eyni zamanda, Rusiyanın öz ərazisində, hətta bu ölkənin ən dərinliklərində belə partizan qrupları var. Müharibə başlayan iki ildən çox müddətdə zaman-zaman Rusiyanın mərkəzindən çox uzaq məkanlarda ölkənin hərbi obyektlərinə, yanacaq və dəmiryol infrastrukturlarına qarşı diversiyalar həyata keçirilir. Bunları törədənlər yalnız ukraynanılar, tatarlar deyil; onların arasında etnik ruslar da olur.

Ukraynaya xidmət edən partizan hərəkatı Rusiya ərazisində də fəaliyyət göstərir. Onu da nəzərə almaq lazımdır ki, Rusiyada bu tip hərəkatlara qarşı mübarizədə təcrübəsi olan əks-kəşfiyyat qurumları var. Ona görə də belə bir durumda partizanlıq etmək çətindir. Odur ki, mümkün olanı etməklə kifayətlənməyə məcburuq...

***- Ukraynada, xüsusən cəhbə xəttinə yaxın yerlərdə əhalinin əhval-ruhiyyəsi haqqında nə demək olar?***

- Ukraynada savaş gedir və əhalinin əhval-ruhiyyəsi də buna uyğun formalaşır. Müharibə şəraitində illərlə yaşamaq, o əzab-əziyyətə duruş gətirmək çətindir. İnsanlar müxtəlifdir və bu durumu fərqli cür qarşılayırlar. Elə insanlar var, hətta hərbi komandanlıq, dövlət onları təhlükədə olduqlarını görür. Düşmənin artilleriya məsafəsində yerləşdikləri üçün evakuasiya olunmaları haqqında xəbərdar etsə də, onlar öz doğma yurdlarını tərk etmək istəmirlər... Bütün hallarda müharibə gedir və hamıdan fədakarlıq, cəsarət gözləmək doğru olmaz. Hamı müharibənin bitməsini, Ukrayna xalqının qələbəsini, ən azı, nəyinsə dəyişməsini gözləyir...

✍ ***Sultan Laçın***



Gündəm

# İrəvanda kilsə iqtidara qarşı

◂ əvvəli 1-ci səhifədə

Maraqlı hal budur ki, Mkırtıç Nersisyan dünya ermənilərinin katalikosu erməni apostol kilsəsinin başçısı II Qareginin qardaşıdır". Politoloq bildirir ki, erməni keşişin rəhbərlik etdiyi aksiyaya Köçəryan-Sarkisyan cütlüyünün və həmin dövrdə hakimiyyətdə olmuş rusiyapərəst nazirlərin, ordu mənsublarının dəstək verdiyini nəzərə alanda belə bir təəssürat yaranır ki, aksiyaların arxasında Rusiya dayanır. Eyni zamanda, erməni kilsəsi dünyada erməni diasporası ilə çox sıx əlaqədə olan, onun maliyyə dəstəyi ilə ayaqda duran inkişaf edən qurumdur. Eləcə də ayrı-ayrı Qərb dairələrinin Paşinyanla bağlı vahid mövqeyi yoxdur. Bir sıra Qərb dairələri Paşinyanın üzərinə götürdüyü öhdəlikləri icra etməməsindən narazıdırlar. Ona görə də Paşinyanın başqa bir qərbyönümlü şəxsə dəyişmək istəyən qüvvələrin də kilsəyə dəstək verdiyini söyləmək olar:

"Amma erməni çoxluğu Paşinyanı dəstəkləyir. Hesab edirəm, sayca az olan qüvvələrin Paşinyanın devirmək gücləri yoxdur".

■ **Siyasi ekspert Aydın Quliyev Ermənistanda revanşist, aqressiv hərəkatların önündə kilsənin getməsini təsadüfi saymayıb. Ekspert qeyd edir ki, tarixən Ermənistanın işğalçılıq, qəsbkarlıq siyasətinin önündə kilsə gedib. Bu qəsbkarlıq və torpaq iddiaları bütün tarixi dövrlərdə kilsənin rəhbərliyi ilə planlaşdırılıb.** "Ermənistan dövlətinin, diasporasının anti-Azərbaycan, antitürk siyasətindən öncə də bu prosesin önündə kilsə dayanıb. Kilsə müxtəlif ölkələrdə erməni qiyamlarının, üsyanlarının vətəndaş itaətsizliklərinin, yaşadıqları ölkələrdə mərkəzi hakimiyyətə qarşı mübarizə ideyasının əsas ilhamvericisidir. Çar Rusiyasının özündə rus hakimiyyətinə qarşı müəyyən silahlı çıxışların hazırlanmasının mərkəzi məhz kilsə olub. Ona görə də XIX əsrin sonlarında Rusiyada kilsənin fəaliyyəti qadağan olunmuş, kilsələrdə məktəblər yığışdırılmış və aparılan axtarışlar zamanı Rusiya dövləti əleyhinə hazırlıq çərçivəsində silahlar, cəbhəxanalar aşkar olunmuşdu. Bu gün də Ermənistanda revanşist hərakatının önündə kilsənin getməsi məhz bu tarixi qaynaqlara söykənir". A.Quliyev bu prosesdə məqsədlərin açıq olduğunu deyib. O bildirib ki, burada məqsəd Ermənistan baş nazirinin Azərbaycanla sülh sazişinə doğru atılan addımların qarşısını almaq, sülh müqaviləsini imzalanmaqdan çəkindirmək və müxtəlixf xarici oyunçuların əli ilə yenidən müharibə ocağı yaratmaqdan ibarətdir.

> *Qərb Paşinyanın Azərbaycanla bağlı atdığı addımları qəbul etmədiyi üçün 5-ci kolonlarını işə salır*

> *Ermənistanın sağlam qüvvələri bu proseslərdən nəticə çıxarmalıdır*

Ekspert erməni kilsəsinin dünyanın müxtəlif siyasi mərkəzləri tərəfindən idarə olunduğuna heç bir şübhə olmadığını deyib: "Zaman-zaman kilsə Rusiya, Fransa, Amerika, Livan, Suriyadan idarə olunur. Uzaq hədəf kimi Ermənistanda hakimiyyət dəyişikliyinə nail olaraq kilsənin idarə etdiyi şəxsləri hakimiyyətə gətirməkdir. Kilsə Ermənistanda hakimiyyət dəyişikliyinə nail olub, özünün idarə üsülunu formalaşdlrmaq istəyir".

■ **Siyasi ekspert Fuad Əliyev erməni kilsəsinin Ermənistanda keçirdiyi etiraz aksiyalarının görüntü xarakteri daşıdığını bildirir. Onun fikrincə, Qərb və bir sıra regionda maraqlı olan dairələr bu aksiyaların sanki getdikcə geniş vüsət aldığını, kəskinləşdiyini göstərmək üçün süni texnologiyalardan istifadə edirlər.** "Kilsə Qərbin təzyiq aləti kimi çıxış edir. Əgər ABŞ hakimiyyətə gətirmək üçün kiməsə dəstək verirsə, mütləq onun yerinə keçirə biləcəyi ikinci, üçüncü şəxsləri də hazırlayır. Əgər Paşinyan Qərbin siyasətindən kənar addım atıb, onun istəklərindən qırağa çıxırsa, dərhal digər namizədləri hakimiyyətə çıxarmaq üçün əllərindən gələni edirlər. Görünən odur ki, Qərb dəyişiklik etmək istəyir".

F.Əliyevin fikrincə, Ermənistandakı "5-ci kolon" Qərbdən maliyyə və digər dəstəkləri alaraq belə mitinqlərə əl atırlar. Son günlər Nikol Paşinyanın Azərbaycanla sülhə gəlmək istəyi ilə bağlı açıq çıxışları Qərb və digər maraqlı qüvvələri narahat etməyə bilməzdi. Eyni zamanda, iki ölkənin xarici işlər nazirləri səviyyəsində danışıqlar nəticəsini verir, delimitasiya prosesi başlayıb, artıq sərhədlərdə dirəklər qurulur. Bu, Fransa, ABŞ siyasətinə sərf etmir. Qərb Paşinyanın Azərbaycanla bağlı atdığı addımları qəbul etmədiyi üçün "5-ci kolon"larını işə salır. F.Əliyev həmin qüvvələrin eyni ssenari ilə Gürcüstanda da fəal olduğunu deyib. Onun sözlərinə görə, hər iki qonşu respublikada keçirilən aksiyada etirazçılar rəhbərliyin istefaya getməsi üçün çağırışlar edirlər.

F.Əliyev bildirir ki, Ermənistanda keçirlən aksiyanın başında duran keşiş meydanda toplanan insanlarla şəkil çəkdirib, guya etitaz aksiyasını sarsılmaz olduğunu göstərmək üçün təbliğat qurur. Əslində isə o meydanda göründüyü qədər aksiyaçı yoxdur. Vaxtilə Azərbaycanda Milli Şuranın keçirdiyi mitinqləri təlatümlü göstərmək üçün guya minlərlə adam yığışdığını göstərməyə çalışırdılar. Faktiki olaraq o mitinqlərə çox az adam qatılırdı. Qərb texnoloqları bu istiqamətdə çox yaxşı işləyir. Guya Ermənistanın çalxalandığını göstərmək üçün meydana toplaşan kütləni şişirdərək ictimaiyyətə təbliğ edirlər.

■ **Siyasi şərhçi Tofiq Abbasov Ermənistanda kilsənin heç vaxt siyasətdən uzaq olmadığını qeyd edir. Bildirir ki, Ermənistan dövlət olana qədər idarəçilik funksiyalarını məhz erməni kilsəsi daşıyıb.**

"Bu faktdır ki, erməni kilsəsi iki yerə parçalanıb - kilikiyə və Sovet İttifaqının yaratdığı kilsə. Bunların arasında oxşarlıqlar olsa da, bəzi hallarda mövqeləri üst-üstə düşmür. İndiki şəraitdə kilsə siyasi hakimiyyətə iddialarını nümayiş etdirir. Ona görə də Nikol Paşinyana sabotaj tədbirləri həyata keçirir və özünün daha vətənpərvər olduğunu nümayiş etdirməyə çalışır. Bu, kilsənin özünün seçimi deyil. Erməni kilsəsi hələ sovet illərində siyasi proseslərin içindədir və casus şəbəkəsinin yaranmasında erməni kilsəsindən yararlanırdılar. Eləcə də bundan sovet KQB-si, digər xarici ölkələrin məxfi orqanları da bəhrələnirdi. İndi artıq sovet sistemi yoxdur, soyuq müharibə bitib, erməni kilsəsi öz səlahiyyətlərini bərpa etmək istəyir. Əsas qayələri ondan ibarətdir ki, öz güclərini göstərib proseslərə müdaxilə etsinlər". T.Abbasov hesab edir ki, erməni kilsəsi ilə Qarabağ klanının mövqeləri üst-üstə düşür və Paşinyanın siyasətini özləri üçün təhdid gördüklərindən onu hakimiyyətdən uzaqlaşdırmağa çalışırlar. Onun fikrincə, bu, Ermənistanı müsbət dəyişikliyə aparmayacaq. Ermənistanın nicat yolu Türkiyə və Azərbaycanla barışıqdan keçir. Kilsə ilə Qarabağ klanı məhz bu nöqtədə kəsişir. Ermənistanın özü də axsaq vəziyyətdədir. Daxildə ciddi xaos, hərc-mərclik var. Nikol Paşinyan hakimiyyətindən tələb olunan odur ki, qətiyyət göstərib öz mövqelərini müdafiə etsin.

"Ermənistan Azərbaycanı təhdid etmək istəsə, ağır vəziyyətdə qalacaq. Prezident Şuşada çıxışında açıq bəyan etdi ki, o qüvvələr ki, Azərbaycana qarşı təhdidlər yağdırır, Ermənistanda revanşistlərin baş qaldırmasını istəyir, Ermənistana öldürücü silahlar verir, o silahların kritik həddə çatmasını görsək, onda bizdən heç kim inciməsin. Heç kim bizim qabağımızda dura bilməz. Nəyi lazım biliriksə, onu da edəcəyik. Ona görə də Ermənistanın sağlam qüvvələri bu proseslərdən nəticə çıxarmalıdır".

■ **Siyasi ekspert Zəlimxan Məmmədli bildirir ki, Ermənistanda siyasəti yönəldən, idarə edən, kilsəni saxta "böyük Ermənistan" ideyaları ilə qidalandıran mərkəzlərdən biri Kremldir. Onun sözlərinə görə, Ermənistan o labirintdən çıxmaq, Türkiyə, Azərbaycanla münasibətləri yenidən qurmaq, "böyük Ermənistan", ərazi iddialarından imtina etmək istəyir. Bu da Rusiyanın maraqlarına uyğun deyil.**

Z.Məmmədli kilsənin Rusiya tərəfindən daha çox sovet məkanında və Şərqi Avropada idarə olunduğunu deyib. Onun sözlərinə görə, Rusiyanın dini və siyasi rəhbərliyi daim birgə hərəkət edirlər. Rusiya bütün manevrləri ilə Ermənistanı durdurmaq üçün kilsəni hərəkətə keçirib.

Ekspert Paşinyanın öz mövqeyini ifadə edərək kilsəni saxtakarlıqda ittiham etməsini əks-qüvvələrin direnişi kimi dəyərləndirib.

"Din siyasətdən ayrı olmalıdır, o, ibadətdir, Tanrıya tapınma yoludur. Allahımız dəyişən deyil, siyasət isə dəyişəndir. Biz bunu bir şüar kimi desək də, dindən ciddi bir siyasət kimi istifadə etmək istəyən dövlətlər var. Kilsəyə tapşırıq verən mərkəz sabah olmaya bilər. Ermənistan hakimiyyəti bunu dərk etməlidir".

✍ ***Tahirə Qafarlı***

# Təhsil kreditlərinin əhatəsi genişlənir

## Layihə

***Azərbaycanda tələbələrə təklif olunan təhsil kreditlərindən istifadə edənlərin əhatə dairəsi genişləndirilib. Ailə başçısını itirməyə görə əmək pensiyası və sosial müavinət alanlar da Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditləri ala biləcəklər. Bununla bağlı Baş nazir Əli Əsədov Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında Qərar imzalayıb. Dəyişikliyə əsasən, hər iki valideynini itirən şəxslərlə yanaşı, digər qanuni nümayəndələrini itirənlər də təhsil tələbə kreditindən yararlana biləcəklər.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Bu kateqoriyaya, həmçinin bir valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, digər valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alan şəxslər, eləcə də bir valideyni müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə və ya azadlığın məhdudlaşdırılması növlərində cəza çəkən, digər valideyni bu Qaydada qeyd olunan kateqoriyalardan hər hansı birinə aid olan şəxslər də şamil edilir.

Təhsil kreditinin qaytarılması zamanı bu Qaydanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulmuş güzəştlərin tətbiq edilməsi elektron sistem vasitəsilə aşağıdakı qaydada həyata keçirilir: 7.5-1.1. borcalanın normativ təhsil müddətində bütün tədris semestrləri (yarımillər) üzrə elektron sistemə daxil etdiyi ÜOMG-si (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı) barədə məlumatlarını təhsil müəssisəsinin məsul şəxsi gücləndirilmiş elektron imza ilə təsdiqləyir.

Fond elektron sistem vasitəsilə əldə etdiyi məlumatları nəzərdən keçirərək üç iş günü müddətində bu Qaydanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulmuş güzəştin tətbiq edilməsinə dair qərar qəbul edir. Həmin qərar qəbul edildiyi gün elektron sistemə ötürülür və tələbənin “Şəxsi kabinet”ində yerləşdirilir. Müvəkkil bank bu Qaydanın 7.5-1.2-ci yarımbəndində qeyd olunan məlumatları elektron sistem vasitəsilə əldə etdikdən sonra 3 (üç) iş günü müddətində borcalan ilə bağlanılmış kredit müqaviləsində müvafiq dəyişikliklər edilir və bu dəyişikliklər elektron sistemə ötürülür.

Qeyd edək ki, elm və təhsil nazirinin müavini Kənan Kərimzadənin sözlərinə görə, təhsil tələbə kreditlərinin verilməyə başlandığı 25 noyabr 2021-ci ildən bu günədək Təhsil Tələbə Krediti Fonduna 45 000-dən çox tələbənin elektron müraciəti daxil olub: “Rəsmiləşmiş müraciətlərin sayı isə cari tarixə görə 34 839 nəfər təşkil edir. Onlardan 12 131 nəfər (35faiz) tələbə Sosial növ TTK, 22 708 nəfər (65 faiz) tələbə isə Standart növ TTK-dan yararlanıb. Ümumilikdə rəsmiləşmiş TTK-lər üzrə tələbələr üçün 31.9 milyon manat təhsil haqqı məbləği təhsil müəssisələrinin bank hesablarına nağdsız qaydada köçürülüb”.

> “
> *Kreditlər standart və sosial olmaqla iki kateqoriyadadır*

Nazir müavini bildirib ki, 838 ailənin 2 nəfər, 9 ailənin isə 3 və daha artıq üzvü təhsil kreditindən yararlanıb: “Rəsmiləşən kreditlərdən 452 ailədən olan 908 nəfər tələbə Sosial TTK-dan, 395 ailədən olan 795 nəfər tələbə isə Standart TTK-dan faydalanıb. Təhsil kreditlərindən yararlanan tələbələrin gender bölgüsündə qızlar (59 faiz) üstünlük təşkil edir”.

Nazir müavini vurğulayıb ki, yeni qərara əsasən aşağıda qeyd edilmiş daha dörd yeni sosial baxımdan həssas əhali qrupuna aid kateqoriyalardan olan tələbələr də Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına sosial növ təhsil tələbə krediti ala biləcəklər:

*- “ailə başçısını itirməyə görə əmək pensiyası alan” valideyni olan tələbələr;*

*- “bir valideynin orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilibsə və digər valideyn orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alan” tələbələr;*

*- “bir valideyni azadlıqdan məhrumetmə və ya azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş, digər valideyni qaydada qeyd olunan digər kateqoriyalardan hər hansı birinə uyğun olan” tələbələr;*

*- Tələbənin özünün sosial statuslarına münasibətdə isə indiyədək ailə başçısını itirməyə görə əmək pensiyası alan tələbələr ilə yanaşı, bundan sonra əlavə olaraq “ailə başçısını itirməyə görə sosial müavinət alan” tələbələr də bu güzəştdən istifadə hüququ əldə edəcək.*

Nazir müavini qeyd edib ki, sosial təhsil tələbə krediti ala biləcək şəxslərin əhatə dairəsinin genişləndirilməsi təhsilə əlçatanlığı daha da artıracaq.

Təhsil tələbə kreditlərinin vətəndaşın maliyyə sabitliyi və rifahına qatdığı dəyər barədə də danışan Kənan Kərimzadə bildirib ki, təhsil tələbə kreditlərindən istifadənin bütün fərdlərə şamil olunması, heç bir limit və ya məhdudiyyətin tətbiq edilməməsi ailələrin maddi rifahına şübhəsiz ki, müsbət təsir göstərən amildir.

**■ Mövzu ilə bağlı təhsil eksperti Elçin Əfəndi bildirib ki, 2024/2025-ci tədris ili üçün 30 000 tələbə birbaşa dövlət sifarişi üzrə təhsil ala biləcək:**

“Nəzərə alsaq ki, sosial-həssas qrupa daxil olan, yəni imtiyazları olan tələbələr də var (məcburi köçkün statusu olanlar, I və II qrup əlliliyi olanlar, valideynlərini itirənlər, 23 yaşadək sağlamlıq imkanları məhdud olanlar, şəhid övladları və s.) o zaman demək olar ki, ali təhsil müəssisələrinə ayrılan təxminən 65000 plan yerindən 40000-i üzrə tələbələr ödənişsiz təhsil alacaqlar. Bu olduqca müsbət və mütərəqqi haldır. Bundan əlavə son illər ən düzgün qərarlardan biri də məhz Tələbə Təhsil Krediti Fondunun yaradılması oldu ki, bu da maddi imkansızlıq ucbatından təhsilini dayandırmaq məcburiyyətində qalan tələbələrə böyük dəstəkdir”.

Ekspert qeyd edir ki, kreditlər standart və sosial olmaqla iki kateqoriyadadır: ”Standart kredit əsasən, akademik göstəricisi yüksək olan tələbələrə verilir. Bunun üçün onlar qəbul olduqdan sonra ən azı bir semestr təhsil almalıdırlar ki, standart kreditin tətbiq olunub-olunmaması müəyyənləşsin. Digər növ, yəni sosial kredit isə ali təhsil müəssisəsinə qəbul olduğu andan müraciət əsasında təyin oluna bilən kredit növüdür. Burada da yenə əhalinin sosial-həssas qrupuna daxil olan tələbələrə güzəştli şərtlərlə kredit verilir. Bu günlərdə Elm və Təhsil Nazirliyinin müraciəti əsasında Nazirlər Kabineti yeni qərar verdi və bu qərarla da sosial kredit ala biləcək şəxslərin əhatəsi bir qədər də genişləndi’’.

**■ Məsələ ilə bağlı təhsil eksperti Elşən Qafarov da qeyd edib ki, təhsil krediti Azərbaycan gəncliyi üçün böyük töhvədir: “Təhsil Tələbə Kredit Fondu Azərbaycanda iki ilə yaxındır ki, fəaliyyətdədir.**

> “
> *Təhsil krediti Azərbaycan gəncliyi üçün böyük töhvədir*

Bu müddətdə sosial vəziyyəti zəif olan ödənişli əsaslarla oxuyan tələbələrin təhsilinə böyük töhvələr verib. Cənab Prezidentin sərəncamı ilə ilk olaraq 80, daha sonra 12 və 18 milyon vəsait ayrıldı. Bu isə iki istiqamət üzrə təşkil olunur. Onlardan biri də sosial sahədir. Burada əhatəliyin artırılması böyük dəyişiklik yaradacaq.

Məsələn, hər il ödənişli qəbul olan təxminən iki mindən çox tələbə təhsil ala bilmirdi. Bu fond təsis olunduqdan sonra tələbələrin bilik nailiyyətlərində yüksəliş müşahidə edilir. Təhsillərini əla qiymətlərlə bitirənlərə kredit verilir. Həmçinin bu, Azərbaycan gəncinin təhsil almaq hüququnun təmin edilməsi naminə çətinlikləri aradan qaldırır. Yeni qərar təqdirəlayiqdir. Fikrimcə, dəyişiklikdən sonra, daha çox tələbə bu fürsətdən yararlana biləcək.Tezliklə isə Nazirlər Kabinetinin tələbələrin yataqxana, nəqliyyat xərclərinin verilməsinə dair qərarı səbirsizliklə gözləyirik”.

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Azərbaycanla Çin arasında qarşılıqlı etimad mövcuddur



**Azərbaycan-Çin münasibətləri son illərdə sürətlə inkişaf edir. İki ölkə arasında yüksək səviyyəli siyasi dialoq iqtisadi əməkdaşlığın daha da dərinləşməsinə, müxtəlif sahələrdə əlaqələrin güclənməsinə imkan yaradır. Bunu APA-ya açıqlamasında Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Soltan Məmmədov deyib.**

Deputat bildirib ki, 2018-ci ildə Azərbaycanla Çinin xarici ticarət dövriyyəsi 1,3 milyard dollar olub. Ötən il bu göstərici əhəmiyyətli dərəcədə artaraq 3,1 milyard dollara çatıb:

“Bu rəqəmlər hər iki ölkənin iqtisadi əlaqələrin şaxələndirilməsində maraqlı olduğunu təsdiq edir. Bu gün Çin Azərbaycanın xarici ticarət tərəfdaşları arasında ilk beşliyə daxil olan ölkələrdən biridir. İqtisadi əlaqələrin güclənməsi regionda və dünyada baş verən proseslər fonunda Azərbaycanla Çin arasında çox etibarlı tərəfdaşlıq münasibətlərinin, qarşılıqlı etimadın mövcud olduğunu göstərir”.

Soltan Məmmədov qeyd edib ki, Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafına dəstək verən ölkələrdən biridir. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri, Xəzər dənizi, Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanan ən yaxşı marşrturlardan biri kimi qiymətləndirilir:

“Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsünün region üçün əhəmiyyətini yüksək qiymətləndirir. Cənab Prezidentin Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin nümayəndə heyəti ilə görüşündə də vurğulandığı kimi, ikitərəfli əlaqələr keyfiyyətcə yeni müstəviyə yüksəlib”.

Deputat nəzərə çatdırıb ki, Azərbaycan COP29 çərçivəsində də Çin Xalq Respublikası ilə əməkdaşlıqda maraqlıdır. Çinin yaşıl enerjiyə keçid sahəsində zəngin təcrübəsi var. Bərpaolunan enerji mənbələrinin inkişafında çox böyük uğurlar əldə edən Çinlə bu sahədə əməkdaşlığın inkişaf etdirilməsi yaşıl enerjiyə keçidi özünün milli prioritetləri sırasına daxil etmiş Azərbaycan üçün çox vacibdir:

“Azərbaycan işğaldan azad olunmuş ərazilərdə yaşıl enerji zonası yaratmaq istiqamətində praktiki addımlar atır. Bu prosesə Çin şirkətlərinin cəlb olunması işğaldan azad olunmuş ərazilərin bərpasının sürətləndirilməsinə töhfə verə bilər”.

# Araik və digər separatçıların həbs müddəti uzadıldı



**Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən həbs edilən, Qarabağda qondarma separatçı rejimin “prezidentləri” olmuş Bako Saakyan, Araik Arutyunyan, sabiq “xarici işlər naziri” David Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan barəsində seçilmiş həbs qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsinin vəsatətlərinə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatlarına baxılıb. Təqdimatlara Binəqədi Rayon Məhkəməsində baxılıb.**

Məhkəmə təqdimatları təmin edib və onların hər biri barəsində həbs qətimkan tədbirinin müddətini daha 5 ay uzadılıb.

Qeyd edək ki, istintaqı Baş Prokurorluq və DTX əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən davam etdirilən cinayət işi üzrə separatçı rejimin ümumilikdə 15 nəfər üzvü məsuliyyətə cəlb olunub. Həmin şəxslər barəsində müxtəlif illərdə Baş Prokurorluq tərəfindən cinayət işi açılıb və beynəlxalq axtarış verilib.

Ötən il keçirilən antiterror əməliyyatından sonra Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda qondarma qurumun “prezidentləri” olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq ”xarici işlər naziri” David Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş “dövlət naziri” Ruben Vardanyanı da həbs edərək Bakıya gətirib.

Xatırladaq ki, ötən gün Qarabağda qondarma separatçı rejimin “prezidenti” olmuş Arkadi Qukasyan haqda seçilmiş həbs qətimkan tədbirinin müddəti də 5 ay uzadılmışdı.

## XƏBƏRİNİZ OLSUN...



■ Moskva Rusiya, Ermənistan və Azərbaycan liderlərinin qərarı ilə 2021-ci ildə yaradılmış üçtərəfli qrupun tamhüquqlu işini mümkün qədər tez bərpa etməyi zəruri hesab edir. Bunu Rusiya Federasiyası xarici işlər nazirinin müavini Mixail Qaluzin bildirib. Onun sözlərinə görə, Qərbin təzyiqi ilə İrəvan Cənubi Qafqazda iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması işi üzrə üçtərəfli əməkdaşlığı dondurmaq qərarına gəlib.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-aprel aylarında əlilliyi olan şəxslərə 40,2 min reabilitasiya vasitəsi verilib. Bu ilin 4 ayında ümumilikdə 5,5 min nəfər əlilliyi olan şəxs reabilitasiya vasitəsi ilə təmin edilib.

---

Bu ilin yanvar-aprel ayları üzrə operativ məlumatlara əsasən, ötən 4 ay ərzində respublikada elektrik enerjisinin istehsalı 9 248,6 mln. kVt·st olub, bu da illik müqayisədə 6,1% azdır. Qeyd olunur ki, yanvar-aprel ayları üzrə elektrik enerjisinin idxalı 62,2 mln. kVt·st, ixracı isə 407 mln. kVt·st olub.

---



Elektron ödəniş təşkilatlarının fəaliyyətinin lisenziyalaşdırılması Azərbaycan Mərkəzi Bankının gündələyindədir. Bunu Mərkəzi Bank sədrinin birinci müavini Rəşad Orucov deyib. O qeyd edib ki, indiyə kimi 20-dən çox elektron pul və ödəniş təşkilatı lisenziya üçün AMB-yə müraciət edib.

---

Maliyyə sektoru texnoloji yenilikləri sürətlə mənimsəyir. Bunu Türkiyənin Bank Nəzarəti və Tənzimlənməsi İdarəsinin sədr müavini Mustafa Aydın deyib. “Maliyyə sektoru texnoloji yenilikləri sürətlə mənimsəyir. Son 10 il ərzində ”ağıllı” cihazlar və mobil internet istifadəsinin artımı maliyyə sektorunun inkişafına təkan verib”, - deyə o bildirib.

---

ABŞ Ukraynaya daha bir “Patriot” hava hücumundan müdafiə sistemi göndərə bilər. Avropalı müttəfiqlər də öz ehtiyatlarından əlavə hava hücumundan müdafiə sistemləri göndərmək planları üzərində işləyirlər, onların sayı göstərilmir.

---



Tbilisidə səfərdə olan Latviya, Litva, Estoniya və İslandiyanın XİN rəhbərləri Prezident Salome Zurabişvili ilə görüşüb. Prezident XİN başçıları ilə mətbuata birgə açıqlamasında qanun layihəsini veto edəcəyini bir daha vurğulayıb.

---

Ceff Bezosun “Blue Origin” şirkəti iki illik fasilədən sonra kosmosa turistlərin uçuşlarını bərpa edəcək. Şirkət bildirib ki, NS-25 missiyası Qərbi Texasdakı “Launch Site One” kosmik mərkəzindən qalxacaq, uçuş üçün start pəncərəsi mayın 15-də başlayacaq.

# NATO-nun sonu çatır?



***Qərb ölkələri Şimali Atlantika Alyansının gələcəyi ilə bağlı ciddi narahatlıq keçirirlər. Səbəb isə bu il ABŞ-də keçirilməsi nəzərdə tutulan prezident seçkilərində Donald Trampın qalib gəlmək şanslarının artmasıdır. Məlumdur ki, Tramp Ağ evə rəhbərliyi ələ keçirəcəyi təqdirdə, Vaşinqtonun NATO-dan çıxa biləcəyi ilə bağlı bəyanatlar verib. Bu, Avropa ölkələrini ciddi şəkildə narahat edir. Məsələ ilə bağlı Qərb mediası NATO-nun başı üstünü alan qara buludlardan yazmağa başlayıb. Məsələn, “Foreighn Affairs” yazır ki, Tramp yenidən seçilərsə, NATO çətin günlərlə üzləşəcək. O, NATO-nu tərk etməsə belə, onun bloka qarşı mövqeyi və Ukraynanı dəstəkləməkdə maraqlı olmaması təşkilatın dünyadakı rolunu kəskin şəkildə zəiflədəcək.***



## Panorama

Ekspertlər bildirirlər ki, dünyanın ən uğurlu hərbi ittifaqı olan NATO keçən ay 75 illik yubileyini qeyd etsə də, ABŞ-nin keçmiş prezidenti Donald Tramp hələ də bu ittifaqı köhnəlmiş hesab edir. Trampın ikinci prezidentliyi Avropanın təhlükəsizliyi üçün dəhşətli nəticələrə səbəb ola bilər.

Trampın müdafiəçiləri deyirlər ki, o, Avropanı öz ordusuna daha çox pul xərcləməsi üçün blef edir. Tramp vəzifədə olduğu müddətdə NATO məsələlərində onunla yaxından əməkdaşlıq edən keçmiş ABŞ rəsmiləri onun yenidən seçiləcəyi təqdirdə, alyansı tərk edəcəyinə əmindir. ”Tramp ilk prezidentlik dövründə onu nəzarətdə saxlayan mötədil məsləhətçilərinə son dərəcə qəzəblidir. 2025-ci ildə Ağ evə gələrsə, onun yolunda olan bütün maneələr aradan qalxacaq”, - rəsmilər deyir.

### Konqres də narahatdır

**İş ondadır ki, ABŞ-nin daxilində də Tramp qalib gələcəyi zaman NATO ilə bağlı qərarlarını əngəlləmək üçün hazırlıqlara start verilib. Bu məsələdə ABŞ Konqresi də narahatdır.** Qanunverici orqan bu yaxınlarda Senatda üçdəiki səslə və ya Konqresin hər iki palatasının təsdiqi olmadan ABŞ-nin NATO-dan çıxmasına prezidentə icazə verməyi qadağan edən qanunu qəbul edib. Tramp bu qadağadan yan keçə bilər. O, artıq NATO-nun qarşılıqlı müdafiə ilə bağlı 5-ci maddəsinə əməl etməyə hazır olduğuna şübhə etdiyini bildirib. Tramp NATO-nun maliyyələşdirməsini dayandırmaqla, ABŞ qoşunlarını və komandirlərini Avropadan çıxarmaqla və Şimali Atlantika Şurasında (NATO-nun ən yüksək məşvərət orqanı) mühüm qərarların qəbulunu əngəlləməklə alyansı formal olaraq tərk etmədən kəskin şəkildə zəiflədə bilər. Hətta o, NATO-dan Amerika dəstəyini tamamilə geri çəkməsə belə, Trampın alyansla bağlı hazırkı mövqeyi, Ukraynanı dəstəkləməkdə maraqlı olmaması Avropanın Amerika rəhbərliyinə və Amerikanın hərbi qətiyyətinə inamını sarsıdacaq.

### İlk qurban Ukrayna olacaq

**“Foreighn Affairs”in ekspertləri bu qənaətdədirlər ki, Trampın NATO ilə bağlı siyasətinin ilk qurbanı elə Ukrayna olacaq. Tramp Kiyevə əlavə hərbi yardım əleyhinədir və Rusiya Prezidenti Vladimir Putinə rəğbət bəsləməkdə davam edir.**

NATO-nun Baş katibi Yens Stoltenberq, artıq Ukraynaya dəstəyi ABŞ-nin rəhbərlik etdiyi Ukrayna Müdafiə Əlaqə Qrupunun deyil, alyansın himayəsi altında koordinasiya edərək, Trampdan qorumağa çalışır. Birləşmiş Ştatlar Trampın dövründə Avropaya qarşı müdafiə öhdəliklərini zəiflədərsə və ya sona çatdırarsa, Avropa ölkələri özlərini daha həssas hiss edəcək və Ukraynaya həyati əhəmiyyətli hərbi resursları göndərməkdən getdikcə çəkinəcəklər. Yardımın kəskin şəkildə azaldılması halında Kiyev Moskva ilə xoşagəlməz saziş bağlamaq məcburiyyətində olacaq. Nəticədə, Ukrayna Rusiyaya qarşı hərbi və iqtisadi baxımdan zəif mövqedə qalacaq. Ukraynanın müdafiəsini nisbətən tez bərpa edə bilər. Bütün Ukraynanı özünə tabe etdirdikdən sonra Putin, çox güman ki, alyansın təhlükəsizlik çətiri altına düşən, lakin tarixi Rusiya torpaqları elan edilmiş NATO üzvləri olan Baltikyanı ölkələrə diqqət yetirəcək. Əgər NATO-nun Rusiyaya qarşı şərti mühasirəsi ABŞ-nin dəstəyini geri çəkməsi ilə zəifləsə, Moskva daha aqressiv davranmağa meyillənəcək”.

Qeyd edək ki, NATO ölkələri hazırda ÜDM-nin 2%-ni müdafiəyə xərcləyirlər, lakin Avropa bir sıra mühüm sahələrdə ABŞ-dən ciddi şəkildə asılı olaraq qalır. Özlüyündə o,





tamamilə çökərsə, onun təxminən 38 milyon əhalisi məcburi ruslaşdırma siyasəti ilə üzləşəcək.

### Avropa üçün “rus təhlükəsi”

**Qərb mediası NATO-nun zəifləməsi fonunda Avropa üçün ”rus təhlükəsi”nin artacağı qənaətindədir. Bildirilir ki, Trampın NATO-nu zəiflətməsi fonunda Ukraynın qurban edilməsinin fəlakətli nəticələri yalnız bundan sonra başlayacaq.**

Zəifləmiş NATO Rusiyanın gələcək hərəkətlərinə qarşı effektiv ənənəvi maneə yaratmaqda çətinlik çəkəcək. Rusiya hazırda ÜDM-nin 6%-ni müdafiəyə xərcləyən silahlı qarşıdurma vəziyyətindədir. ”Onun lideri “Rus dünyası” adlandırdığı ərazi üzərində öz hakimiyyətini möhkəmləndirmək kimi ultramillətçi gündəmə sadiqdir. Moskva öz silahlı qüvvələrini uğurlu müdafiə üçün lazım olan bir çox əsas vasitələrdən, o cümlədən hərbi hava logistikası, hərbi təyyarələrin havada yanacaqla doldurulması, yüksək hündürlükdə hava hücumundan müdafiə, kosmik aktivlər və əməliyyat kəşfiyyatından məhrumdur.

Bütün bunlar, əsasən, ABŞ tərəfindən təmin edilir. Amerikanın köməyi olmasa, NATO Rusiyaya qarşı hərbi üstünlüyünün çoxunu itirərdi. Avropanın müdafiə sənayesi çox dağınıq olaraq qalır və Amerika dəstəyinin itkisini kompensasiya etmək üçün lazım olan imkanların inkişafı bu onilliyin qalan hissəsini əhatə edə bilər.

### ABŞ mətbuatı Avropanı aşağılayır

**ABŞ mətbuatı isə daha çox Avropanı şantaj etməklə məşğuldur. Hər bir halda Avropanın Vaşinqtondan asılı olduğunu önə çəkməklə Qərbi Avropa ölkələri aşağılınır, onların zəif təhlükəsizlik çətirinə malik olduqları önə çəkilir.**

**Sitat:** ”ABŞ rəhbərliyi olmasa, NATO üzv ölkələr arasında birliyi qorumaqda çətinlik çəkəcək. Alyansın fərqli üzv dövlətlərini konsensusa gətirmək üçün çox vaxt güclü Amerika səsi lazımdır. NATO yaranandan bəri təşkilatın komandanlıq strukturuna rəhbərlik edən, bütün NATO üzv dövlətlərinin hərbi fəaliyyətinə nəzarət edən amerikalı generaldır. Hər hansı digər müttəfiq ölkənin bu rolu oynaya biləcəyi şübhəlidir”. ABŞ-siz NATO axsaya bilər, lakin ittifaqın tamamilə dağılması ehtimalı daha yüksəkdir. Avropa İttifaqı tezliklə NATO-nun yerini tuta bilməyəcək, çünki onun hərbi imkanları məhduddur”.

### Asiya ölkələri də narahatdır

**Ekspertlər Trampın mümkün qayıdış ssenarisinin təkcə Avropanı yox, Asiyanı da təhdidlərlə üzüzə qoyacağı qənaətindədirlər.** Bildirilir ki, əgər Tramp müttəfiqlərini qeyri-kafi müdafiə xərclərinə görə cəzalandırmaq üçün NATO-nu tərk etmək istəyirsə, onda nə üçün Birləşmiş Ştatlar Asiyadakı tərəfdaşları qarşısında götürdüyü öhdəlikləri yerinə yetirsin ki? Onların əksəriyyəti hazırda hərbi ehtiyaclara NATO ölkələrindən də az pul xərcləyir. Hələlik ABŞ və Avstraliya, Yaponiya və Cənubi Koreya kimi Asiya müttəfiqləri arasında müdafiə əlaqələri Çinin qarşısını alır. ABŞ-nin öhdəliklərinə inamsızlıq bu ölkələrin bəzilərinin Çin və Şimali Koreyanın nüvə üstünlüklərini kompensasiya etmək üçün nüvə silahı əldə etmək qərarına gəlməsinə səbəb ola bilər və bununla da regionda onilliklər ərzində hökm sürən kövrək sabitliyi poza bilər.

Bu siyasətdən ABŞ iqtisadiyyatının da zərər çəkə biləcəyi qənaəti mövcuddur. Mühafizənin uğursuzluğu Rusiya və ya Çinlə böyük müharibəyə səbəb olarsa, iqtisadi xərclər çox böyük olacaq. Yəməndəki bir neçə Husi yaraqlısı Qırmızı dənizdəki hücumları ilə qlobal gəmiçiliyi poza bilib. Böyük dövlətlər arasında müharibənin nəticələrini təsəvvür edin. Axı ticarət əlaqələri çox vaxt təhlükəsizliklə bağlı inkişafları izləyir. Ötən il ikitərəfli transatlantik ticarət 1,2 trilyon dolları ötüb. ABŞ Avropa sənayesinə təxminən dörd trilyon dollar sərmayə qoyub. Təxminən beş milyon amerikalı Avropaya məxsus müəssisələrdə işləyir. Birləşmiş Ştatların Avropada sülhün qorunmasında böyük iqtisadi marağı var. Bütün bu proseslərin hansı istiqamətdə irəliləyəcini bir neçə ay sonra ABŞ-də keçiriləcək prezident seçkilərinin nəticələri müəyyənləşdirəcək.

*✍ Vüsal Tağıbəyli*

---

Təklif

***Azərbaycanda istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi cəhətdən köhnəlmiş nəqliyyat vasitələrinin ətraf mühitə təsirinin qiymətləndirilməsi, onlardan istifadənin və dövriyyələrinin məhdudlaşdırılması ilə bağlı təkliflər hazırlanacaq. Qeyd edək ki, bu məsələ ekoloji təmiz və təhlükəsiz nəqliyyat vasitələrinin dövriyyəsinin stimullaşdırılması və infrastrukturunun təkmilləşdirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsində əksini tapıb.***

# Köhnə avtomobillərdən istifadə məhdudlaşdırılır

Məlumata görə, layihə iyunun 1-dək hazırlanaraq Ekologiya və Təbii Sərvətlər, Daxili İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinə (o cümlədən Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi) və Dövlət Gömrük Komitəsinə təqdim edilməlidir.

Yeri gəlmişkən rəsmi statistikaya görə, ötən il ölkədə 1 milyon 774 min 77 yol-nəqliyyat vasitəsi qeydə alınıb. Onlardan istehsal ili 10 ilə qədər olanların sayı 15 faiz təşkil edir, yəni 266



min 878-ə bərabərdir. İstehsal ili 10 ildən 20 ilə qədər olanların sayı 707 min 673-dür ki, bu da 39,3 faiz təşkil edir. İstehsal ili 20 ildən yuxarı olanların sayı 799 min 526-ya bərabərdir. Yəni, respublika üzrə avtomobil parkında nəqliyyat vasitələrinin 45,1 faizinin yaşı 20 ildən yuxarıdır. Hazırda ölkəmizdə hibrid avtomobillərinin sayı 42 min 461, elektrik mühərrikli avtomobillərin sayı isə 3 min 138-dir. Bəs, görəsən, yeni qərardan sonra köhnə və ekoloji cəhətdən nəzərdə tutulan standartlara cavab verməyən avtomobillərin aqibəti necə olacaq?

**■ Məsələ ilə bağlı nəqliyyat üzrə ekspert Yasin Mustafayev deyib ki, ölkəmizdə avtomobil parkı çox köhnə olsa da, son illər parkın yenilənməsi istiqamətində mütəmadi planlar hazırlanıb, işlər görülür:**

“Köhnə nəqliyyat vasitələrinin dövriyyəsinin məhdudlaşdırılması məsələsinin gündəmə gəlməsi də elə bununla əlaqədardır. Düzdür, ölkəyə yeni avtomobillər gətirilməkdədir. Amma hal-hazırda mövcud olan 1 milyon 800 minə yaxın nəqliyyat vasitəsinin çoxu köhnə avtomobillərdir. Biz statistikaya baxsaq bunu görə bilərik. Hazırda atılan addımlar avtomobil parkının yenilənməsinə xidmət edir’’. Ekspert bildirib ki, köhnə nəqliyyat vasitələrinin dövriyyəsi məhdudlaşdırılması istiqamətində bir çox təkliflər irəli sürülə bilər: ‘’Lakin atılan hər bir addımda vətəndaş məmunluğu nəzərə alınmalıdır ki, köhnə avtomobil sahibləri avtomobillərini yeniləməkdə maraqlı olsunlar. Məsələn, əgər biz vətəndaşdan köhnə avtomobili alırıqsa, ona sərfəli şərtlərlə ölkədə istehsal olunan yeni nəqliyyat vasitələrini təklif etməliyik. Yəni, bu layihə vətəndaşın zərərinə olmamalıdır’’.

**■ Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov bildirib ki, bu qəbildən olan avtomobillərin yenisi ilə əvəz edilməsi üçün yetərincə say və baza olmalıdır:**

“Bu addım utilizasiya prosesinə bir növ təkan olacaq. Burada əsas baza elementi müxtəlif dövlət qurumlarının birgə əməkdaşlığı nəticəsində ölkəyə gələcəkdə idxal ediləcək avtomobillərin ekoloji cəhətdən uyğun olması əsas kriteriya təşkil ediləcək. İlkin göstəricilərə əsasən, ekoloji cəhətdən uyğun olmayan avtomobillərin yenisi ilə əvəz olunması məsələsi növbəti mərhələnin işidir. Əvvəlcə baza və say olmalıdır. Bunlar olduqdan sonra artıq müəyyən işləri görmək olar. Bu növ maşınları yenisi ilə əvəz etmək və ya dəyərini ödəmək olar”.

> *“Hazırda mövcud olan 1 milyon 800 minə yaxın nəqliyyat vasitəsinin çoxu köhnə avtomobillərdir*
>
> *Ekoloji cəhətdən uyğun olmayan avtomobillərin yenisi ilə əvəz olunması məsələsi növbəti mərhələnin işidir*

Ekspert bəzi nəqliyyat vasitələrinin göstəricilərinin fərqli olmasının prosesə ciddi təsir edəcəyini qeyd edib: “Bütün bunlar hamısı növbəti mərhələdə atılacaq addımlardır. Onun üçün prosesin necə davam edəcəyini indidən proqnozlaşdırmaq çətindir. Nəqliyyat vasitələri texniki göstəricilərinə, il və davranış qaydalarına görə fərqlənə bilər. Məsələn, elə avtomobillər ola bilər ki, ili yenidir, ancaq texniki paramterləri aşağı səviyyədədir. Yaxud yanacaq sərfiyyatı ekoloji cəhətdən dəstəklənmir. Bunlar özlüyündə ayrı-ayrı elementlərdir. Bunun üçün də müəyyən işlərin görülməsi, müəyyən proseslərin aparılması başlıca məsələlərdən biridir”.

*✍ Müşfiq*

# Ən yaxşı universitetlər arasında yenə də yoxuq

***Dünyanın ən yaxşı universitetlərinin yeni siyahısı açıqlanıb. Qeyd edək ki, ən yaxşı 200 universitetdən 56-sı məhz ABŞ-dadır. "Global İndex"in araşdırmasına görə, siyahıda ikinci yeri Böyük Britaniya, üçüncü yeri Almaniya, dördüncü yeri Çin, beşinci yeri Avstraliya, altıncı yeri Niderland, səkkizinci yeri Kanada, doqquzuncu yeri İsveçrə, onuncu yeri Cənubi Koreya tutur. Bu siyahı demək olar ki, dəyişmir. Həmişə olduğu kimi, top onluqda, hətta top iki yüzlukdə olan universitetlərin hamısı inkişaf etmiş ölkələrə aiddir. Bəs görəsən, dünyanın ən yaxşı universitetlərinin uğur sirri nədir?***



## Təhsil

**■ Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Nadir İsrafilov deyib ki, dünya reytinq siyahısında universitetlər yüksək bal alanda bir neçə xüsusiyyətlər nəzərə alınır. Bura universitetin kampusunun, yataqxanasının, kitabxanasının və elmi bazasının olması daxildir:**

"Nəzərə alaq ki, dünyanın məşhur universitetlərinin reytinqlərdə ilk sırada olmalarının bir səbəbi də tələbələr üçün yaradılan mühitdir. Dünyanın aparıcı universitetləri kampus şəraitində fəaliyyət göstərir. Bu da ayrıca xüsusi şəhərcikdir. Hansı ki, orada tələbələr yataqxana, tıxac, kitab problemi ilə üzləşmirlər. Hətta tələbələr həmin şəhərcikdə işləyib pul da qazana bilərlər. Kampus şəraitində tələbənin heç bir problem ola bilməz. Dünya təcrübəsinə baxsaq, məsələn, Harvard, Oksford kimi universitetlər kampus formasında fəaliyyət göstərir. Onların tələbə şəhərciyi var. Bu şəhərcikdə tələbələr üçün hər cür şərait yaradılıb. Kitabxana, yeməkxana, idman zalı, kafe, restoran və s. şəhərciyin daxilindədir. Bizdə də bu məsələ dəfələrlə qaldırılıb. Kampusların tikilməsi məqsədəuyğun sayılıb. Hətta şəhərin mərkəzində bəzi ali məktəblər üçün yataqxanaların tikilməsi nəzərdə tutulub. Sözsüz ki, təhsili əlçatan eləmək istəyiriksə, ödənişləri də, yataqxanaları da əlçatan etməliyik. Bizim minlərlə şagirdimiz ali məktəbə daxil olub, amma təhsil və kirayə haqqı kimi maddi sıxıntılar imkan verməyib ki, onlar təhsilini davam etdirsin. Tələbələr üçün mühitin yaradılması vacib məsələdir".

**■ "Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti" İctimai Birliyinin sədri İlqar Orucov bildirib ki, universitetlərin reytinqini müəyyənləşdirən bir çox təşkilatlar var. Bu təşkilatlar arasında çox ciddi rəqabət mövcuddur. Amma onların sonda gəldiyi yekun nəticələrdə o qədər də ciddi fərq olmur.**

Onun sözlərinə görə, "Times Higher Education" 2024-cü il üçün universitet reytinqləri çox məşhur və nüfuzludur. Bizim universitetlərin bu reytinqdə ön cərgələrdə olmaması düşündürücüdür. Universitetlər öz tədiqatları ilə dünya elminə töhfələr verməlidir. Burada həmçinin xarici tələbələrin yerli tələbələrin sayına nisbəti də nəzərə alınır. Universitetdə çalışan xarici müəllimlərin sayı, eləcə də beynəlxalq səviyyədə birgə elmi işlərin səviyyəsi də diqqətdə saxlanılır. Bunlar çox ciddi tələblərdir: "Biz çox istəyərdik ki, Azərbaycanda universitetlərin çoxu bu tələblərə cavab versin. Bəzən iddia edirlər ki, reytinqdə yer alan universitetlərin çoxu keçmişdə yaradılan və büdcəsi böyük olan universitetlərdir. Büdcə məsələsi buna təsir etsə də, yeni universitet yaradıb bu tələblərə cavab vermək mümkündür. Dünya səviyyəli müəllimlərin, xarici tələbələrin Azərbaycanda çalışması və təhsil alması üçün universitetlərin keyfiyyətli təhsil verməsi və büdcəsi şərtdir. Bu gün Azərbaycan universitetlərində əcnəbi tələbələr təhsil alır. Amma gəlin görək o tələbələr hansı ölkələrdən Azərbaycana təhsil ardınca gəliblər. Bu, çox vacib amildir. Çin, Yaponiya kimi ölkələrdən təəssüf ki, hansısa tələbə Azərbaycana təhsil almaq üçün gəlməz. Onlar dünyanın daha yaxşı təhsil verən universitetlərini seçirlər".

> *Bizim minlərlə şagirdimiz ali məktəbə daxil olub, amma təhsil və kirayə haqqı kimi maddi sıxıntılar imkan verməyib ki, onlar təhsilini davam etdirsin*
>
> *Biz çox istəyərdik ki, Azərbaycanda universitetlərin çoxu bu tələblərə cavab versin*
>
> *Dünya universitetlərinin reytinq sıralamasında Azərbaycanın ali təhsil müəssisələrinin önəmli yer tutması üçün islahatlar aparılmalıdır*

İ.Orucov bildirib ki, Azərbaycan universitetlərinin beynəlxalq qrantlara çıxışı da aşağı səviyyədədir. Universitetlərin bu qrantlarla maliyyə əldə etməsi çox vacib amildir. Təəssüf ki, Azərbaycan universitetlərinin gəliri əsasən ödənişli təhsildən formalaşır. Ekspert onu da xatırladıb ki, ölkə prezidentin imzası ilə Azərbaycan universitetlərinin rəqabət qabiliyyətinin artırılması üçün Dövlət Proqramı qəbul olunub. İndi ümid həmin proqramdan irəli gələn tədbirlərin icrasınadır: "Bu proqram çərçivəsində bizim xeyli gənclərimizi xaricdə nüfuzlu elm mərkəzlərində təhsil almaq üçün göndərilib. Ümid edək ki, onlar qayıdıb Azərbaycanda çalışacaqlar və beləcə Azərbaycan universitetlərinin kadr təminatı məsələsi bir qədər yaxşılaşacaq. Amma təkcə yerli kadrlarla da iş bitmir. Xarici kadrların da olması vacibdir. Bunun üçün isə yaxşı laboratoriyalar yaradılmalıdır ki, bu da zaman və maliyyə tələb edir".

**■ Mövzu ilə bağlı təhsil eksperti Elçin Əfəndi isə bildirib ki, dünya universitetlərinin reytinq sıralamasında Azərbaycanın ali təhsil müəssisələrinin önəmli yer tutması üçün islahatlar aparılmalıdır:**

"Fikrimcə, dünyanın nüfuzlu universitetləri ilə rəqabət aparmaq və reytinq sıralamasında yaxşı yerlərdə qərarlaşmaq üçün təhsilin keyfiyyətini artırılmalıdır. Tələbələr üçün ideal təcrübə mərkəzləri olmalıdır. İnformasiya ilə daha zəngin yeni nəsil müəllimlərinə üstünlük verilməlidir. Yəni universitetlərimizdə yaşlı nəslin nümayəndələri tədricən təqaüdə göndərilməli və gənc kadrlara, xüsusilə də xaricdə təhsil alanlara üstünlük verilməlidir. İnformasiya texnologiyalarının bizə verdiyi geniş imkanlardan maksimum yararlanaraq, tələbələrimizin hər birinə dərsliklərin əlaçatanlığını təmin etməliyik. Ölkəmizdə fəaliyyət göstərən bütün ali təhsil müəssisələri dünyada baş tutan bütün təhsil yönümlü elmi konfranslarda, beynəlxalq olimpiadalarda, tərəfdaşlıq proqramlarında, sərgilərdə və s. iştirak etməlidirlər. Hər bir ali təhsil müəssisəsinin öz kampusu, yataqxanası, kitabxanası olmalıdır.

Ali təhsil müəssisələrinin rəhbərləri islahatçı olmalıdır. Ali təhsil müəssisələrində elmi dərəcələri olan çoxsaylı kontingent olmalıdır. Hər bir ali təhsil müəssisəsinin peşəkar SMM-i olmalıdır. Xarici ölkə vətəndaşlarının ölkəmizdə ali təhsil alması əlaçatan olmalı və bu istiqamətdə təkcə Dövlət İmtahan Mərkəzi deyil, ali təhsil müəssisələri də fəaliyyətlərini tənzimləməlidir. Bütün bu sadaladıqlarım reytinq zamanı əsas diqqətə alınan faktorlardır. Amma çox təəssüf ki, sadaladıqlarımın bir qismi tək-tük Azərbaycan ali təhsil müəssisələrində mövcuddur".

✍ ***Sevinc***

# Rusiya sülhməramlıları Qarabağı tərk etdi

***Xocalıda Rusiya sülhməramlılarının Qarabağı tərk etməsi ilə bağlı tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin, eləcə də Rusiya Federasiyasının Müdafiə Nazirliyinin, Sülhməramlı kontingentinin, Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfirliyinin rəsmi nümayəndələri, hərbi qulluqçular və media nümayəndələri iştirak ediblər. Qonaqlar Rusiya Federasiyasının Sülhməramlı Kontingentinin Qarabağ iqtisadi rayonu ərazisində fəaliyyətini əks etdirən fotosərgi ilə tanış oduqdan sonra fəxri kürsüyə dəvət olunub və mərasimin proqramı elan edilib.***

Mərasim iştirakçılarını salamlayan general-polkovnik Kərim Vəliyev 2020-ci il 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyi arasında imzalanmış bəyanata əsasən Qarabağ iqtisadi zonasında müvəqqəti yerləşdirilmiş kontingentin fəaliyyəti haqqında danışıb. Baş Qərargah rəisi Azərbaycan Respublikasının və Rusiya Fedarasiyasının dövlət başçıları arasında əldə olunan razılığa əsasən fəaliyyətini vaxtından əvvəl dayandıraraq ölkə ərazisindən çıxarılan sülhməramlı kontingentin bütün heyətinə sülhün və sabitliyin rifahı naminə xidmətlərinə görə minnətdarlığını bildirib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb. 3 ildən artıq müddət əvvəl baş vermiş 44 günlük Vətən müharibəsi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tam qələbəsi və ərazi bütövlüyünün bərpa edilməsi ilə sona çatdı. General-polkovnik Kərim Vəliyev deyib.



Onun sözlərinə görə, 2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli Bəyanat nəticəsində atəşkəsə nail olundu və 30 ilə yaxın davam edən Qarabağ münaqişəsinə son qoyuldu.

"Missiya müddətində sülhməramlı kontingent üzərinə düşən tapşırıq və vəzifələri yerinə yetirmiş, Qarabağ iqtisadi rayonu ərazisində sülhün və sabitliyin təmin olunması üçün səylərini əsirgəməmişdir.

Qeyri-qanuni erməni silahlı birləşmələrinin mülki əhaliyə qarşı davam edən təxribatlarının qarşısının alınması və Qarabağ iqtisadi rayonu üzərində Azərbaycan Respublikasının tam nəzarətinin bərqərar edilməsi məqsədilə 2023-cü ilin sentyabr ayında lokal xarakterli antiterror tədbirləri keçirilmişdir. Bu tədbirlər nəticəsində separatçı rejimin fəaliyyətinə son qoyuldu, Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı birləşmələri ölkə ərazisindən tam çıxarıldı. Yaranmış vəziyyət nəzərə alınaraq ölkələrimizin ali rəhbərliyi tərəfindən Rusiya Federasiyasının sülhməramlı kontingentinin missiyasının vaxtından əvvəl dayandırılması barədə qərar qəbul edildi", - deyə K.Vəliyev əlavə edib. Daha sonra Rusiya Federasiyası Qərərgah rəisi Yevgeni Nikiforov çıxış edib. Sülhün bərqərar olunması prosesində istehkamçılar tərəfindən hektarlarla ərazi minalardan təmizlənib. Otuz min ədəd partlayıcı zərərsizləşdirilib. Nikiforov Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlı kontingentinin missiyasının başa çatmasına həsr olunmuş mərasimdə deyib.

O bildirib ki, 30 min ədəd partlayıcı zərərsizləşdirilib. "Üç il yarım bundan əvvəl birgə səylər nəticəsində Qarabağda gedən qanlı müharibəni dayandırmaq mümkün oldu. Azərbaycan, Ermənistan və Rusiya liderləri müharibənin dayandırılması barədə üçtərəfli birgə bəyanat imzaladılar. Demək olar ki, növbəti gün Rusiya sülhməramlılarının bölgəyə yerləşdirilməsi başlanıldı, Qarabağ ərazisində postlar quruldu və regionda dayanıqlı sülhün formalaşmasına zəmin yaradıldı. Sülhün bərqərar olunması prosesində istehkamçılar tərəfindən minlərlə hektar ərazi minalardan təmizlənib, 30 min ədəd partlayıcı zərərsizləşdirilib. Bu çərçivədə 90 mindən çox insan humanitar, 1000 nəfərdən çox dinc sakinə ixtisaslı tibbi yardım göstərilib. Bundan əlavə, sülhməramlı kontingent inanclı insanların dini əhəmiyyətli obyektlərə çıxışını bərpa edib. Eyni zamanda, münaqişə tərəfləri ilə əməkdaşlıq nəticəsində 100-dən çox insanı əsirlikdən geri qaytarmaq mümkün olub. Rusiya sülhməramlı kontingentinin axtarış qrupları tərəfindən 1900 nəfərdən artıq meyit aidiyyəti üzrə təhvil verilib. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdıqdan sonra Azərbaycan və Rusiya rəhbərliyi sülhməramlı kontingentin ölkə ərazisindən çıxarılmasına dair qərar qəbul etdilər. Rusiya hərbi qulluqçuları dövlətimizin hərbi-siyasi rəhbərliyi tərəfindən qarşıya qoyulmuş vəzifələri yüksək səviyyədə yerinə yetiriblər. Rusiya Federasiyasının müdafiə naziri, Baş Qərargah rəisi və öz adımdan Rusiya sülhməramlılarına vəzifələrini layiqincə yerinə yetirdiyinə, Azərbaycan hərbçilərinə isə səmərəli əməkdaşlığa görə minnətdarlığımı bildirirəm", - deyə o qeyd edib. Çıxışlar bitdikdən sonra Azərbaycan və Rusiya müdafiə nazirlərinin əmrləri ilə təltif olunan hərbi qulluqçulara medallar təqdim olunub, rəsmi qonaqlar arasında hədiyyə mübadiləsi baş tutub.

Tədbirin sonunda Azərbaycan və Rusiya Müdafiə nazirliklərinin yaradıcı kollektivlərinin iştirakı ilə konsert proqramı təqdim olunub. Xatırladaq ki, Rusiya sülhməramlı kontingenti Azərbaycan və Rusiya prezidentləri və Ermənistan baş nazirinin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatının üçüncü bəndinə uyğun olaraq Azərbaycanın Qarabağ bölgəsinə yerləşdirilmişdi.



**■ Azərbaycan hökuməti rəqəmsallaşmaya böyük əhəmiyyət verir. Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov deyib.**

O, qeyd edib ki, rəqəmsallaşma Azərbaycanda iqtisadi inkişafa və məhsuldarlığın artımına töhfə verir. Bu, xidmətlər və məlumatlara çıxış əldə etməyə imkan verir. Eyni zamanda, səhiyyə idarəetmə və təhsil sahəsinə töhfə verir. Azərbaycanda rəqəmsallaşmanın inkişaf strategiyası hazırlanıb. Strategiya rəqəmsal hökumət, rəqəmsal cəmiyyət, rəqəmsal biznes kimi üç sütundan ibarədir. Rəqəmsallaşma istiqamətində 500 KOB subyektini dəstəkləyirik. Ölkə əhalisinin 65%-i rəqəmsal İD-dən istifadə edir. "Rəqəmsal transformasiya üçün etibarlı infrastruktur qurmalıyıq.



**■ Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) 2024-cü ildə Azərbaycanda daha güclü artım proqnozlaşdırıb. Bu barədə AYİB-in açıqlamasında bildirilib. Bank Azərbaycanın 2024-cü il üçün ÜDM artımı proqnozunu 2,4 faizdən 3,1 faizə qaldırıb.**

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) son Regional İqtisadi Perspektivlər hesabatında Azərbaycanın iqtisadi artımının 2023-cü ilin ortalarından 2024-cü ilin birinci rübünə qədər sürətlə artdığı bildirilib. Bank 2025-ci ildə artımın cüzi azalaraq 2,7 faiz olacağı gözləyir: "Son artıma Avropanın Azərbaycanın neft və qazına olan tələbatının artması təsir etmişdir. Bununla yanaşı, dövlət sektoru xərcləri və investisiyaların da artması gözlənilir.



**■ Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, Avropa regionunda əksər insanlar həddindən artıq çox duz istifadə edir və 30-79 yaş arası hər üç yetkin şəxsdən biri hipertoniyadan, yəni yüksək qan təzyiqindən əziyyət çəkir.**

Bu barədə ÜST-nin Avropa Regional Bürosunun "Duzla və hipertoniya ilə mübarizə" mövzusunda hesabatında deyilir. Məlumata əsasən, yüksək duz qəbulu infarkt və insult kimi ürək-damar xəstəlikləri (ÜDX) riskinin əsas faktoru olan qan təzyiqini artırır. "ÜDX Avropa regionunda əlilliyin və erkən ölümün əsas səbəbidir. Belə ki, hər il ölüm hallarının 42,5 faizdən çoxu buna görə baş verir. Bu, o deməkdir ki, hər gün 10 min nəfər bu səbəbdən ölür.



**■ İşğaldan azad edilmiş ərazilərimizdə gənclik şəhərinin yaradılmasını arzu və təklif edirik. Bunu Sosial Tədqiqatlar Mərkəzinin (STM) İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "Azərbaycan ailəsi: dəyişən və dəyişməyən dəyərlər" mövzusunda mayın 15-də keçirilən konfransda səsləndirib.**

STM-in 2023-cü il ərzində həyata keçirdiyi sorğular əsasında tərtib olunan "Müasir Azərbaycan ailəsi" analitik hesabatı barədə də danışan Z.Oruc hesabatda respondentlər arasında 5 sorğu aparıldığını diqqətə çatdırıb. Onun sözlərinə görə, ailə dəyərləri kontekstində qlobal problemlərdən biri də sosial-mənəvi, mədəni-milli mühitin saflığının qorunmasıdır. Bu istiqamətdə ölkəmizdə müvafiq tədbirlər görülür.



**■ İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanın Çindəki ticarət nümayəndəliyinin təşkilatçılığı ilə Çinin Ciansu əyalətinin paytaxtı Nankin şəhərində "Azərbaycan Ticarət Evi" açılıb.**

Bu, hazırda Çində fəaliyyət göstərən 6-cı Azərbaycan Ticarət Evidir. Nankin şəhəri ilə yanaşı, Pekin, Sian, Çindao, Çendu və Canciacie şəhərlərində də ticarət evi fəaliyyət göstərir. Azərbaycan Ticarət Evi Nankin şəhərinin əsas biznes rayonlarından hesab olunan Çisiada yerləşir. İki mərtəbədən ibarət olan ticarət evinin ümumi sahəsi təxminən 340 kvadratmetrdir. Burada xalça, şərab, brendi, digər spirtli içkilər, meyvə şirəsi, turşu, şirniyyat da daxil olmaqla 60 növ məhsul satılır. Ticarət evində Azərbaycan məhsullarının həm pərakəndə, həm də topdan satışı həyata keçirilir.



**■ Yeni Kaledoniyada iğtişaşlarda üç nəfər həlak olub. "Reuters" xəbər verir ki, bu barədə yerli polis bildirib. Ölənlər adanın yerli sakinləri olan gənc Kanaklardır.**

Yüzlərlə şəxsin iğtişaşlarda yaralandığı bildirilir. Qeyd edək ki, iğtişaşlar Fransa Milli Assambleyasının Sakit okean adasında səsvermə qaydalarına dəyişiklikləri təsdiqləməsindən sonra başlayıb. Bazar ertəsi Fransa parlamenti adada 10 ildən çox yaşayan Fransa vətəndaşlarına yerli seçkilərdə səsvermə hüququnun verilməsinə səs verib. Yerli liderlərin bəziləri qanuna edilən bu dəyişikliyin Kanakların adanın işlərində söz sahibi olmaq hüququnu azaldacağından narahatdır. Fransanın daxili işlər naziri Gerald Darmaninin sözlərinə görə, iğtişaşlar zamanı yüzə yaxın polis yaralanıb, bir neçə mağaza dağıdılıb.

# Səhm bazarına maraq azdır

**Dünyada fərqli sahələrdə fəaliyyət göstərən müxtəlif şirkətlərin səhmləri bir çox investorlar üçün gəlirli maliyyə aləti hesab olunur. Belə ki, sadə vətəndaşlara da açıq olan şirkətlərin satışa çıxardığı qiymətli kağız olan səhmlər investisiya portfelini genişləndirmək üçün ən yaxşı seçim sayılır. Təbii ki, səhmlərin alqı-satqısı fiziki olaraq həyata keçirilmir. Bu istiqamətdə əməliyyatlar bank və ya broker şirkətinin vasitəçiliyi ilə aparılır. Qeyd edək ki, son illər Azərbaycanda bu sahəyə maraq artıb. Necə deyərlər, artıq pulu olanlar vəsaitlərini brokerlər vasitəsilə səhm bazarına yatırmağa çalışırlar.**



## Maliyyə

Mütəxəssislər isə fərqli investisiya alətləri arasında seçim edərkən diqqətli olmağı tövsiyə edirlər. Bəs, görəsən, Azərbaycanda bu fəaliyyət növü necə tənzimlənir? Sadə vətəndaşların brokerlərə vəsaitlərini etibar etməsi risk yaradırmı?

### Bazar yox dərəcəsindədir

**■ Məsələ ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov deyir ki, Azərbaycanda bazar olduqca zəif-**



Pərviz Heydərov,
iqtisadçı-ekspert

**dir: "Hətta deyərdim ki, yox dərəcəsindədir.** Ayrı-ayrı iri şirkətlərin dövriyyəyə qiymətli kağızlar buraxması bazarın formalaşması demək deyil. Demək olar ki, bazar iştirakçılarının sayı da azdır və sadə vətəndaşların bu prosesdə iştirakına rast gəlmirik. Düzdür, sovet dövründə bazarda "zayom" deyilən qiymətli kağız var idi. İndi də SOCAR tərəfindən istiqrazlar buraxılır. Vətəndaşların həmin səhmlərin alqı-satqısında iştirakı, hətta brokerlərin vasitəçiliyindən istifadə etməsi məhdud xarakter daşıyır. Hansısa müəssisələrin səhmləri məhdud bir çərçivədə dövr edir. Onun alqı-satqısında sadə vətəndaşların iştirakı gözə dəymir. Heç bunun mexanizmi də bizə bəlli deyil. Bu baxımdan hesab edirəm, bizdə brokerlik fəaliyyəti yox dərəcəsindədir''.

### Bu halda vətəndaş pulunu yastıq altında saxlamaz

**■ Mövzu ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı Akif Nəsirli bildirir ki, inkişaf etmiş ölkələrdə istiqrazları, qiymətli kağızları təkcə dövlət buraxmır, bu kağızları həm də özəl şirkətlər buraxır:** "Dövlət, adətən, ona pul lazım olanda istiqrazlar buraxır, vətəndaşlardan pul alır. Dövlət istiqrazları dövlətin pula olan ehtiyacını vətəndaşın ehtiyata yığdığı vəsaitlər hesabına ödənilməsidir. Həmin o istiqrazlar müəyyən müddətdən sonra sahibinə müəyyən dividendlər, faizlər qazandırır. Digər tərəfdən, özəl şirkətlərin, yəni səhmdar cəmiyyətlərinin buraxdığı qiymətli kağızlar müəssisənin maliyyələşməsi üçün, onun fəaliyyətini genişləndirmək məqsədilə istifadə olunur. Həmin vəsaitlər hesabına gələn gəlirin mənfəət hissəsi ilin sonunda səhmlər arasında bölünür. Bütün bunlar ölkədə səhm bazarını yara-



Akif Nəsirli,
Liberal İqtisadçılar
Mərkəzinin sədri, iqtisadçı

dır. İnsanlar bu səhmləri əldə etməklə müəyyən gəlir qazanırlar. Məsələn, pandemiya dönəmində Amerikanın qiymətli kağızlar bazarında güclü canlanma getdi. Bu canlanmaya da səbəb var idi. Belə ki, dövlət vətəndaşlara kompensasiya olaraq vəsait verirdi. Hər yer bağlı olduğuna görə, vətəndaşlar o pulları xərcləyə bilmirdilər. Kütləvi olaraq hər kəs pulunu qiymətli kağızlar bazarına qoyurdu. Buna görə də dünyada iqtisadiyyat sahələri donduğu halda, ABŞ-də səhm bazarında canlanma qeydə alınmışdı. Ölkəmizdə bu bazar işləmir. Hələ ki, Azərbaycanda vətəndaşların belə bazara çıxış imkanları yoxdur. Bir qrup insan bu bazara çıxış imkanı var, o da məhdud çevrədə həyata keçirilən əqdlərdir. Azərbaycanda qiymətli kağızlar bazarı normal işləsə, pulu olan vətəndaşlar vəsaitini yastığın altında, banklarda saxlamaz, qiymətli kağızlara yatırar".

> *Ayrı-ayrı iri şirkətlərin dövriyyəyə qiymətli kağızlar buraxması bazarın formalaşması demək deyil*

> *Pandemiya dönəmində Amerikanın qiymətli kağızlar bazarında güclü canlanma getdi*

> *Dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi ilə bazara daha çox səhm daxil oldu*

### Mərkəzi Bankdan lisenziya olmalıdır

**■ Məsələnin hüquqi tərəflərinə toxunan hüquqşünas Əkrəm Həsənov deyir ki, Azərbaycanda səhm bazarının, brokerlik fəaliyyətinin işləməsi üçün qanunvericilik, infrastruktur mövcuddur:**

"Səhm bazarı ilə bağlı qanunvericilik, infrastruktur formalaşıb və onlar işləyir. Milli Depozit Mərkəzi, Bakı Fond Birjası 2000-ci illərdə yaranıb. Ölkəmizdə kifayət qədər açıq səhmdar cəmiyyətləri var. Onlar açıq səhmdar cəmiyyətləri olduqları üçün səhmləri alınıb-satıla bilər. Təəssüf ki, ölkəmizdə açıq səhmdar cəmiyyətlərinin səhmlərinin böyük hissəsi məhdud insanların əlindədir. Onlar isə əllərində olan səhmləri alğı-satqıya çıxarmır, qapalı şəkildə saxlayırlar".

Onun sözlərinə görə, dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi ilə bazara daha çox səhm daxil oldu. İnvestorlar o müəssisələrin səhmlərini almaqda maraqlı deyillər: "Azərbaycanda dövlət müəssisələrinin bir hissəsinin özəlləşdirilməsi prosesi getdi və onlar açıq cəmiyyətə çevrilmişdir, bu zaman həmin müəssisələr Milli Depozit Mərkəzində qeydiyyatdan keçdi və Bakı Fond Birjasında alğı-satqının aparılması mümkün oldu.

Köhnə dövrdən qalan, müasir standartlara cavab verməyən həmin müəssisələrin çoxunda korporativ idarəetmə standartlarının tətbiqi aşağı səviyyədə olduğu üçün maliyyə hesabatlılıqları qaneedici deyil. Maliyyə hesabatlılığı şəffaf olmayan strukturların səhmlərinin investorlar tərəfindən alınması isə bu bazarın ruhuna uyğun deyil. Vətəndaş, şirkətin parametrlərini, vəziyyətini görmədən o şirkətə investisiya etməz. Səhmdar cəmiyyətlərin böyük əksəriyyəti ölü vəziyyətində işləyir''. Ekspert deyir ki, Azərbaycanda qiymətli kağızlar bazarı real olaraq yoxdur: "Yəni, bizdə heç kim heç kimin qiymətli kağızını elə-belə almır. Bilinmir ki, onun arxasında nə durur, gəlir gətirəcəkmi, aldadacaqlarmı və s. Düzdür, ölkə-



Əkrəm Həsənov,
hüquqşünas

də bu fəaliyyət növü qanunvericiliklə tənzimlənir və vətəndaşların brokerlərə etibar etməsində problem yoxdur. Brokerliklə məşğul olmaq üçün Mərkəzi Bankdan lisenziya əldə olunmalıdır. Həmin qurumlar Mərkəzi Bankın nəzarəti altında fəaliyyət göstərirlər. Yenə də qeyd edirəm, bu bazar özü bizdə sərfəli və təhlükəsiz alət hesab edilmir. Bazar inkişaf etməyib, səhmdar cəmiyyətlərin fəaliyyəti şəffaf deyil".

✍ *Sevinc*

## Tədbir

**Azərbaycanda ekoloji tarazlığın qorunması, iqlim dəyişmələri ilə mübarizə dövlət siyasətinin əsas prioritetlərindəndir. Demək olar ki, ölkəmizdə ekoloji tarazlığın təmin olunması istiqamətində həyata keçirilən məqsədyönlü dövlət siyasəti nəticəsində iqlim dəyişmələrinin təsirlərinin yumşaldılması üçün əhəmiyyətli nəticələr əldə olunub. Buna baxmayaraq bəzən bu istiqamətdə görülən işlərə kölgə salan məmurlar da tapılır. Onlar törətdikləri ekoloji pozuntuya görə gec-tez qanun qarşısında cavab verirlər. Yeri gəlmişkən bu yaxınlarda Qusar rayonunda meşədə ağacların qanunsuz kəsilməsinə görə cinayət işi başlanıb.**

# Ekoloji mühitin qorunması prioritetdir

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata əsasən, Qusar rayonunda ağacların qanunsuz kəsilməsi barədə daxil olmuş məlumatlar əsasında Baş Prokurorluqda araşdırma aparılıb. Araşdırmalarla vəzifəli şəxslər tərəfindən səlahiyyətlərindən sui-istifadə edilərək çoxillik ağaclarla əhatə olunmuş meşə fonduna aid 22,3 hektar (ha) torpaq sahəsinin təyinatının əsassız şəkildə dəyişdirilib yaşayış məntəqələrinin torpaqları kimi Qusar şəhər bələdiyyəsinin balansına verilməsinə, meşə fondunun ziyan və itkisinin natamam və qeyri-dəqiq hesablanmasına, vəzifə saxtakarlığına yol verilərək torpaq sahəsinin qanunsuz olaraq müxtəlif vətəndaşlara satılmasına, habelə torpaq sahələrində müxtəlif diametrli və cinsli ağacların qanunsuz kəsilməsi nəticəsində təbiətə külli miqdarda ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunanlar hadisə yerinə baxış və istintaq hərəkəti protokolları, fotoşəkillər, videogörüntülər, müxtəlif dövlət qurumlarının rəyləri, izahatlar və toplanmış digər sənədlərlə təsdiq olunub. Toplanmış material əsasında Cinayət Məcəlləsinin 259.2.4 (külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 313 (vəzifə saxtakarlığı) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işinin başlanıb və ibtidai istintaqın aparılması Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə tapşırılıb.

**■ "Səma və eko" Sosial-iqtisadi inkişafa yardım İctimai Birliyinin sədri İradə Həsənovanın sözlərinə görə, ölkəmizdə ağacların kəsilməsinə, yaşıllıqlara qəddar münasibət göstərənlərə qarşı həmişə sərt tədbirlər görülüb:** ''İnanıram ki, bu məsələyə də qanunvericiliyin tələblərinə uyğun olaraq hüquqi qiymət veriləcək. Vəzifə səlahiyyətlərindən sui-istifadə edənlər ən sərt şəkildə cəzalandırılacaqlar. Çünki ekoloji tarazlığın qorunması bizim dövlət siyasətinin priotitetlərindən birini təşkil edir. Bu il ölkə başçısının müvafiq Sərəncamı ilə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib, həm də nüfuzlu tədbir olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 ölkəmizdə keçiriləcək. Hər iki mühüm hadisə Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsində görüləcək işlərin daha da sürətləndirilməsinə sövq edir".

Azərbaycanda ətraf mühitin sağlamlaşdırılması, iqlim dəyişmələri ilə mübarizə istiqamətində görülən tədbirlərdən danışan təşkilat sədri bunun bariz nümunəsinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının, eləcə də Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji zonası elan edilməsi olduğunu deyib: "Təxminən otuz il ərzində işğal altında qalan torpaqlarımızda törədilən vandallıq aktları hər birimizi dəhşətə gətirsə də, həmin ərazilərə yenidən həyat vermək istəyimizi öldürmədi. Ərazilər minalardan təmizləndikcə o torpaqların biomüxtəlifliyinin bərpası, təbiəti-



> *Ölkəmizdə ağacların kəsilməsinə, yaşıllıqlara qəddar münasibət göstərənlərə qarşı həmişə sərt tədbirlər görülüb*

nin dirçəlməsi üçün müxtəlif aksiyalar, layihələr həyata keçirilir. Barbarların törətdiyi vəhşiliyə susan dünya dövlətlərinin diqqətini Azərbaycanın ətraf mühiti məhv olmuş əraziləri yenidən canlandırmaq uğrunda mübarizəsi cəlb etdi. "Yaşıl enerji zonası" elan edilən Qarabağ və Şərqi Zəngəzur 2050-ci ilədək "netto sıfır emissiya zonası"na çevriləcək. Ölkəmizdə ildən-ilə sürətlənən və miqyası genişlənən ətraf mühitin mühafizəsi tədbirlərinə Qarabağ və Şərqi Zəngəzurda addım-addım aparılan bərpa layihə və aksiyaları ilə dəstək verilməsinin nəticəsidir ki, COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsinə qərar verildi.

Bu, həm də Azərbaycanın, Prezident İlham Əliyevin beynəlxalq aləmdəki nüfuzunun göstəricisidir. Dövlətimiz üçün böyük əhəmiyyət kəsb edən həmin tədbirin də digər beynəlxalq konfrans və sammitlər kimi uğurla təşkil ediləcəyinə şübhə yoxdur. Sadəcə olaraq bu il hər bir qurum, hər bir vətəndaşdan ətraf mühitə qarşı daha duyarlı olmağı, ekoloji əhəmiyyətə malik olan bu dönəmi ölkəmizin gələcəyi naminə maksimum dərəcədə qiymətləndirməyi, görülən işlərin səmərəsini artırmağı tələb edir. Ümid edirəm ki, bu il Azərbaycan qlobal iqlim dəyişmələri ilə mübarizəyə öz mühüm töhfələr və digər ölkələrə nümunə olacaq addımlarla yadda qalacaq".

✍ *Sevinc*

# Suriyadan səkkiz azərbaycanlı ölkəyə gətirildi

**Azərbaycan Respublikasının hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində, 14 may 2024-cü il tarixində Suriya Ərəb Respublikasının münaqişə bölgələrinə getmiş 5-i uşaq və 3-ü qadın olmaqla 8 nəfər Azərbaycan Respublikası vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.**

Xarici İşlər Nazirliyindən bildirilib ki, ilk növbədə repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilib. Daha sonra İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyə Respublikasına ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.



Türkiyə Respublikasının İstanbul şəhərindəki Azərbaycan Respublikasının Baş Konsulluğu tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycan Respublikasına qayıdış şəhadətnamələri ilə təmin olunub və onlar ölkəyə gətiriliblər. Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Azərbaycan Respublikasının hökuməti tərəfindən xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlərin görülməsi davam etdiriləcəkdir.

# Bu qidadan zəhərlənmələrin sayı artır

***Son günlər Azərbaycanda dönərdən zəhərlənmə halları artıb. Bu yaxınlarda Zaqatalada 40 nəfərin zəhərlənməsi ilə nəticələn hadisənin də məhz dönərdən baş verdiyi bildirilmişdi. Təəssüf ki, havalar isindikcə bu cür halların daha çox müşahidə ediləcəyi bildirilir. Problem kimi isə dönərin hazırlanmasında istifadə olunan ət və ət məhsulları göstərilir. Maraqlıdır ki, bu məsələdə satıcılar günahı daha çox onlara ət satanlarda görürlər. Bəs, görəsən, bu gün dönərdən zəhərlənmələr istifadə olunan ətin keyfiyyəti ilə bağlıdırmı? Dönər alarkən nələrə diqqət etməliyik?***



## Təhlükə

■ **Mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, dönər ətinin insanı zəhərləmək xüsusiyyətlərindən biri məhsul bişirilən zaman ancaq onun çölünün qızardılmasıdır:**

"Proses zamanı dönərin içərisinə şiş boyu yenicə istilik keçir. Bu zaman oradan ətdən olan plazma, yəni, su ilə qanın qarışığı olan maye axaraq aşağıdakı sininin içərisinə dolur. Belə olan halda bütün heyvan xəstəlikləri, heyvana aid nə qədər antibiotik, dərman qalıqları varsa, hamısı sininin içinə tökülür. Dönərçilər də ətin qızarmış çöl hissəsini həmin plazma ilə qarışdıraraq alıcılara satırlar. O da məlumdur ki, keyfiyyətsiz ətdən hazırlanmış dönərə ətin dadını itirən ketçuplar və sair əlavələr qarışdırılır. İstehlakçılar isə bunun mənfi təzahüründən xəbərsiz olduğundan dönəri alıb iştahla yeyirlər. Bu da xüsusilə azyaşlı uşaqların və gənclərin həyatını təhlükə altına atır.

Qeyd etmək istəyirəm ki, dönər bir çox ölkələrdə istehsal olunur. Mən özüm Mərkəzi Avropa ölkələrində, o cümlədən İsveçrədə dönər yemişəm. Həmin ölkələrdə dönər oturaq yeməklər sırasına aiddir. Dönəri qabın içində səliqəli şəkildə sifarişçiyə təqdim edirlər. Bu zaman müştəri onun içərisinə nələrin doldurulduğunu görür. Çox təəssüf ki, Azərbaycandakı dönərxanalar elə bir şəraitdə fəaliyyət göstərirlər ki, istehlakçılar məhsulun tərkibindən və onun hazırlanma qaydasından tam xəbərsiz olurlar. Baxmayaraq ki, ölkəmizdə dönərxanalar üçün standartlar mövcuddur. Belə ki, illər öncə keçmiş Dövlət Standartlaşdırma və Metrologiya Komitəsi tərəfindən dönərxanalar üçün standartlar, gigiyenik tələblər müəyyənləşdirilib. Gəlin baxaq, görək həmin gigiyenik tələblərə əməl olunurmu? Dönərxanalarda çalışanlar tibbi müayinədən keçirilirmi? Orada olan məhsulların saxlanması üçün soyuq bir mühit varmı? Əfsuslar olsun ki, bu suallara heç birinin müsbət cavabı yoxdur". Onun fikrincə, dönər ətlərinin mənbəyi də daim şübhə altındadır: "Bu sahədə ən təhlükəli hallardan biri də günün axırına qalan dönərlərdir. Yəni, həmin məhsul ertəsi günə saxlandıqda o, artıq çirklənir. Həmin məhsulda isə bakteriyalar kifayət qədər inkişaf edir. Ona görə bu sahədə lazımi monitorinqlər aparılmalıdır. Bununla yanaşı, dönərçilər də işlərini elə qurmalıdırlar ki, sabaha məhsul qalmasın. Yalnız mənfi 40 dərəcədə soyudulmuş dönəri bakteriyaların inkişafından qorumaq olar. İstehlakçılar dönər alan zaman mütləq ətin mənşəyi ilə bağlı sənəd tələb etmək, satıcılardan tibbi müayinədən keçib-keçmədiklərini soruşmaq hüququna malikdirlər. Yaxşı olardı ki, onlar bu kimi amillərə fikir versinlər. Düşünürəm ki, bu sahədə köklü dəyişikliklər etmək lazımdır.

> *"Bu sahədə ən təhlükəli hallardan biri - günün axırına qalan dönərlərdir*

Dönərin bişirildiyi məkanlarda ciddi monitorinqlər aparılmalıdır. Ətin mənşəyi, onun haradan gətirilməsi və hansı şəraitdə saxlanılması ilə bağlı məlumatlar əldə olunmalıdır. Bütün bunlar cox ciddi amillərdir". Ölkədə yaşanan qida problemlərinin səbəblərinə də toxunan E.Hüseynov bildirib ki, bu sahədəki nöqsanlardan biri də, qanundakı boşluqlarla bağlıdır. AQTA-nın istənilən yerə cəld müdaxilə etmək səlahiyyəti yoxdur. Ona görə də AQTA-nın əsasnaməsində dəyişiklik edilməlidir. Yoxlama üçün gərək üç gün öncədən Ədliyyə Nazirliyinə məlumat verilsin. Belə bir idarəetmədə qida zəhərlənmələrinin çox olması gözləniləndir.

■ **Mövzu ilə bağlı qida mütəxəssisi Ağa Salamov deyib ki, dönərdən zəhərlənmə halı mikrobioloji çirklənmə nəticəsində ola bilər. Onun sözlərinə görə, mal və ya toyuq ətindən hazırlanan dönərlər riskli qidalar sırasına daxildir:**

"Ətin haradan və kimdən gəldiyi, baytar nəzarətinin olub-olmaması, heyvanların necə qidalanması, kəsiminin necə həyata keçirilməsi və s. araşdırılmalıdır. Bu heyvanların hansı maşında daşınmasına da diqqət edilməlidir". A.Salamov deyib ki, məhsul qəbul zamanı mikrobioloji çirklənməyə məruz qalmamalıdır:

"Ətin rəng və qoxusunda heç bir dəyişiklik olmamalıdır, soyuducu ilə təchiz olunmuş avtomobillərdə daşınmalıdır. Eyni zamanda müəssisədə emal prosesi iki saat ərzində sərin temperaturda həyata keçirilməlidir.

> *"Mal və ya toyuq ətindən hazırlanan dönərlər riskli qidalar sirasına daxildir*

Bundan əlavə, isti qida zəncirində də toyuğun tam bişməsinə əmin olmaq lazımdır. Saxlanma şəraiti düzgün olmalıdır. Otaq temperaturunda saxlanılması qadağandır.

Ümumi isə dondurucu istisna olmaqla əti soyuducuda 48 saatdan çox saxlamaq olmaz. Bir sözlə, toyuq məhsullarının soyuq qida zəncirindən kənarda saxlanılması ziyandır. Çox vaxt tələsirlər deyə, ət tam bişməmiş çörəyin arasına qoyub verirlər ki, bu da qida zəhərlənməsinə gətirib çıxarır".

*Rəna*

# "Bakcell"in yeni məhsulu - "F1 Star" artıq satışda

®

**"Bakcell" Azərbaycanda mövcud olan istənilən sürətdən daha sürətli yeni məhsulunu - "F1 Star" fiber internet paketini təqdim edir.**

"Ölkənin ən sürətli mobil operatoru" şüarı ilə bütün ölkəyə bənzərsiz internet sürəti təmin edən Bakcell, bu dəfə yeniliyi evlərə gətirir. Özündə mesh Wi-Fi ruterləri birləşdirən məhsul, evin sahəsindən və mərtəbəsindən asılı olmayaraq hər küncündə eyni yüksək sürət performansını göstərəcək.

1 Gigabit sürət imkanına malik F1 Star məhsulu 14 may 2024-cü il tarixindən etibarən abunəçilərin ehtiyaclarını qarşılamaq üçün hazırlanmış müxtəlif planları ilə satışa çıxarılıb. Bakcell-in təqdim etdiyi bu eksklüziv məhsul ilə abunəçilər dəyərli anların kəsintisiz və sürətli ev interneti vasitəsilə yaşaya bilərlər. "F1 Star-ın ən sürətli sabit internet olması ilə yanaşı, Bakcell-in mükəmməlliyə, innovasiyaya və Azərbaycan xalqına sadiqliyini təmsil edir. Hədəfimiz yeni məhsulla yanaşı, bütün Azərbaycan ərazisində, xüsusən də Azərbaycan üçün olduqca önəmli və dəyərli anlarla zəngin olan Qarabağda ən sürətli sabit şəbəkəni təmin edərək, dəyər təkliflərini artırmaqdır. Yeniliklərimiz bunla bitmir, yaxın gələcəkdə abunəçilər üçün faydalı bir neçə məhsul seriyası təqdim edəcəyik." deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib. Şirkət haqqında: Bakcell 3 milyondan çox abunəçini ölkənin ən sürətli mobil şəbəkəsi ilə təmin edir. Şirkət NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.




## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Xocalı Rayon Məhkəməsinə hakim və sədr təyin edilib. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Tural Mehman oğlu Ələkbərov Goranboy Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Xocalı Rayon Məhkəməsinin hakimi və sədri təyin edilib. Qeyd edək ki, T. Ələkbərov dövlət başçısının Sərəncamı ilə 2021-ci ilin dekabrında Goranboy Rayon Məhkəməsinin hakimi təyin edilmişdi.

### Həftənin NAZİRİ



Rusiya Prezidenti Vladimir Putin müdafiə naziri postuna Andrey Belousovun namizədliyini irəli sürüb. Bu barədə Kremlin sözçüsü Dmitri Peskov məlumat yayıb.

Qeyd edək ki, Belousov bundan əvvəlki hökumətdə Baş nazirin birinci müavini vəzifəsini tutub. Rusiyanın müdafiə naziri vəzifəsini isə ordu generalı Sergey Şoyqu icra edib. S. Şoyqu bu gün Putinin əmri ilə Rusiya Təhlükəsizlik Şurasının katibi təyin edilib.

### Həftənin NAMİZƏDİ



Aziz Yıldırım yenidən "Fənərbaxça" prezidenti ola bilər. O, bu posta növbəti dəfə namizəd olacağını açıqlayıb. Sabiq klub rəhbəri uzun müddətdir bununla bağlı məsləhətləşmələr etdiyini və 2-3 gün ərzində mətbuat konfransı keçirərək prezidentliyə namizədliyini rəsmi olaraq açıqlayacağını bildirib.

### Həftənin QOLU



Futbol üzrə əvəzedici komandalar arasında keçirilən "Qəbələ-2" - "Sabah-2" görüşündə maraqlı qol qeydə alınıb. Hafta.az xəbər verir ki, sözügedən matçda qonaqların qapıçısı Emil Həbibov öz qapısından birbaşa zərbə ilə qol vurub.

### Həftənin MƏHKUMU



Mayın 14-nə keçən gecə saxlanılan Rusiya Müdafiə Nazirliyi Kadrlar Baş İdarəsinin rəisi Yuri Kuznetsov həbs olunub. O, xüsusilə böyük miqdarda rüşvət almaqda şübhəli bilinir. Aparılan axtarışlar zamanı general-leytenant Kuznetsovdan 100 milyon rubldan çox pul götürülüb. Xatırladaq ki, Kuznetsov bu vəzifəyə 2023-cü ilin mayında təyin edilmişdi.

### Həftənin HÖKMÜ



Ötən ilin noyabrında həyat yoldaşı Səltənət Nukenovanı qətlə yetirməkdə təqsirləndirilən Qazaxıstanın sabiq iqtisadiyyat naziri Kuandıq Bişimbayevə hökm oxunub. Bişimbayev 24 il müddətinə azadlıqdan məhrum edilib. Xatırladaq ki, 2023-cü il noyabrın 9-da keçmiş nazir Kuandıq Bişimbayevin saxlanılması ilə bağlı məlumat yayılmışdı.

*Azad Əliyev*

## GÜNÜN FOTOSU



**ABŞ Dövlət Katibi Entoni Blinken Kiyevdə The 1999 qrupunun üzvləri ilə Rockinin the Free World mahnısın ifa edir**

## Ən yaxşı universitetlər arasında yenə də yoxuq

**Elçin Əfəndi,**
təhsil eksperti

Dünya universitetlərinin reytinq sıralamasında Azərbaycanın ali təhsil müəssisələrinin önəmli yer tutması üçün islahatlar aparılmalıdır.

Səh. 6

## STATİSTİKA



■ **Nağdsız ödənişlərin istifadəsində yüksək artım templəri müşahidə edilir.**

Aprelin 1-nə olan məlumata görə, dövriyyədə olan ödəniş kartlarının sayı 22 faizdən çox artaraq 17,4 milyon ədəd olub, kartlarla aparılan ölkədaxili nağdsız ödənişlərin həcmi 80 faizdən çox artaraq 16 milyard manatı ötüb. Ölkədaxili nağd ödənişlərdə nağdsız dövriyyəsinin xüsusi çəkisi 11 faizə yaxın artıb.



Səh. 6

# Rusiya sülhməramlıları Qarabağı tərk etdi